RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 233 (8826) CÜMƏ AXŞAMI, 28 oktyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# ZƏNGƏZUR dəhlizi

## Asiya Avropaya birləşir

Qarabağda daha bir möhtəşəm yeni tarix yazıldı. Azərbaycan və Türkiyə liderləri İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğan əzəli torpaqlarımızda əl-ələ verərək dünyaya mühüm mesajlar ünvanladılar:

- *Hər zaman bir yerdəyik, birliyimiz sarsılmazdır, əbədidir.*
- *Bir millət, iki dövlət olmağın verdiyi ortaq şüur və ruhla hərəkət edirik.*
- *Birliyimiz gücümüzdə, əməlimizdədir.*
- *Çiyin-çiyinə bir yerdə irəliləyirik.*
- *Ən yeni tarixi birlikdə yazırıq.*
- *Qarabağın açarı bizim əlimizdədir.*
- *Zəngəzur dəhlizi bütün Türk dünyasını birləşdirib yeni imkanlar açacaq.*
- *Azərbaycan-Türkiyə birgə gücü daha da təsirli olacaq.*

### Liderlik fenomeni, qətiyyətin təntənəsi

İkinci Qarabağ müharibəsi başlayan gündən bu günədək dünyanın diqqəti Türkiyə və Azərbaycanın birgə yaratdığı reallıqlara yönəlib. Zəfər yürüşümüzün başlandığı andan bu günədək hadisələrin xronologiyasına diqqət yetirdikdə aydın olur ki, iki qardaş ölkə bir ildə bəlkə də böyük dövlətlərin onilliklər boyu görə bilmədikləri işləri reallaşdırıblar.

Vətən müharibəsində böyük mənəvi dəstək, Zəfər paradında birlikdə, Şuşada tarixi Bəyannamənin imzalanması, Qarabağın dünyaya açılan hava qapısı kimi dəyərləndirilən Füzuli Beynəlxalq Hava Limanının açılışında, Zəngəzur dəhlizinin təməlqoyma mərasimindəki birlik nümayişi İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın liderlik fenomeni, qətiyyətin təntənəsi idi.

Bu dəfə də hər iki lider öz əməli fəaliyyəti ilə bir daha milli maraqları hər şeydən üstün tutduqlarını və qətiyyətlə qoruduqlarını nümayiş etdirdilər.

Hələ aylar öncə Prezident İlham Əliyev qətiyyətlə söyləyirdi ki, Zəngəzur dəhlizinin yaradılması bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verir. Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də zorla həll edəcəyik.

Bu gün baş verən hadisələr bir daha təsdiq edir ki, İlham Əliyev səsləndirdiyi bütün sözlərə, vədlərə sadiqliyi ilə xalqın sevgisini qazanan liderdir. Onun sözü imzası qədər keçərlidir.

Ardı 3-cü səh.

# Çex Respublikasının Prezidenti zati-aliləri cənab Miloş Zemana

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan-Çexiya əlaqələrinin genişlənməsi, ölkələrimiz arasındakı əməkdaşlığın möhkəmlənməsi bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 oktyabr 2021-ci il*

# "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin maddi-texniki bazasının yaxşılaşdırılması, Aparatının və regional bölmələrinin işçilərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 dekabr tarixli 446 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin maddi-texniki bazasının yaxşılaşdırılması, Aparatının və regional bölmələrinin işçilərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 dekabr tarixli 446 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2603; 2020, № 5, maddə 562) 2.3.1-ci yarımbəndinə "məqsədilə" sözündən sonra ", habelə dövlət və ictimai məqsədli məsələlərlə əlaqədar" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 oktyabr 2021-ci il*

# Qələbədən yeni reallıqlara doğru

Azərbaycan onillər boyu sülh danışıqları aparanda da, 44 günlük müharibə ilə əsrlərin problemini həll edəndə də nə istədiyini yaxşı bilirdi.

Bu müharibə bizə torpaqlarımızı düşməndən təmizləmək, işğalçı ermənilərə sərf edən şəkildə dondurulmuş münaqişənin buzunu əritmək, status-kvonu ortadan götürmək, yeni reallıqlar yaratmaq, haqq-ədaləti bərpa etmək, məcburi köçkünlərimizin əzəli yurdlarımıza qayıdışına nail olmaq üçün lazım idi.

Bax: səh. 6

# 2030-cu ildə Azərbaycanda enerji istehsalının 30 faizi bərpa olunan enerji payına düşəcək

## Qarabağ və Şərqi Zəngəzur isə yaxın zamanda "yaşıl enerji" zonasına çevriləcək

"Azərbaycan 2030": sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də ölkəmizdə "yaşıl eneryi"yə geniş yer verilməsi də müəyyənləşdirilib. Belə ki, hədəf ümumi enerji istehsalı gücündə bərpa olunan enerjinin payının indiki 17,3 faizdən 2025-ci ildə 24, 2030-cu ildə isə 30 faizə çatdırılmasıdır.

Bütün dünyada bərpa olunan enerjidən istifadə getdikcə özünə daha geniş yer alır. Beynəlxalq Enerji Agentliyinin bildirdiyinə görə, dünyanın enerji sistemi "xalis sıfır" emissiyalar cığırı ilə irəliləyərsə, əsrin ortasında elektrik enerjisi istehsalının 90 faizə qədəri bərpa olunan enerji mənbələrinin payına düşər. Bunun da 70 faizi günəş və külək enerjisi mənbələrindən alınar.

Azərbaycanda da bu məsələyə xüsusi diqqət yetirilir və bərpa olunan enerji sahəsinin inkişafı üçün əlverişli şərait var. Çünki bu növ enerjinin yaradılmasının əsas mənbəyi günəş və küləkdir. Günəşli diyar kimi tanınan ölkəmizin bir sıra bölgələrində, küləklərin tez-tez əsdiyi Xəzər sahilində və dağlar qoynunda yerləşən rayonlarımızda bu enerjidən istifadə üçün geniş imkanlar açılır. Bu, işğaldan azad edilmiş ərazilərdə də bərpa olunan enerji stansiyalarının tikilməsini gündəmə gətirir.

Ardı 7-ci səh.

# "Qardaşların qürur günü"

## İki prezidentin Füzuli və Zəngilana səfəri qardaş ölkə mediasının əsas gündəm mövzusu oldu

Bax: səh. 4




◆ Zəfərin izi ilə

# Şuşanın incisi

## Prezident İlham Əliyevin göstərişi ilə bərpa olunan Mehmandarovların evi şəhərin tarixi ünvanlarından biri kimi keçmiş şöhrətini tezliklə özünə qaytaracaq





**Bu ev bir vaxtlar Şuşanın ən möhtəşəm və dəbdəbəli ünvanlarından idi...**

**Bu evdə yalnız Qarabağın deyil, bütün Azərbaycanın fəxrinə, qüruruna çevrilmiş şəxsiyyətlər dünyaya gəlmiş, yaşamış, qonaq olmuşlar...**

**Bu evdə Azərbaycan milli müqavimət hərəkatının - ilk qisas təşkilatımız olan "Difai"nin tariximizin şanlı səhifələrinə çevrilən fəaliyyətinin planları hazırlanmışdır...**

**Bu ev Prezident İlham Əliyevin tapşırığı ilə Şuşada bərpa edilən ilk tarixi-memarlıq obyektlərinin sırasına salındı...**

**Bu ev Mehriban xanım Əliyevanın şəxsi nəzarəti və himayəsi ilə yeni Şuşanın qədim nümunəsi kimi kərpic-kərpic ucaldılır...**

**Bu ev Azərbaycan tarixinin ən köklü, sanballı, qəhrəman sülalələrindən olan Mehmandarovların malikanəsi - Azərbaycanın müqəddəs ocağıdır...**

Bax: səh. 5

◆ Demək bizdən...

# Noyabrın 15-dək mənzil və müəssisələri nə ilə isidək?

## Yaxud özü mövcud olmayan sovet dövlətinin "ölü" qanunu nə vaxtadək qüvvədə olacaq?

Hazırda dünya qlobal iqlim dəyişikliyi dövrünü yaşayır. Bunun nəticəsidir ki, hər fəsil alışdığımız hava şəraitinin bir qədər dəyişdiyini görürük.

Üstəlik, televiziya ekranlarından əvvəllər dünyanın yağışların az olduğu və qar yağmadığı yerlərində daşqınların baş verdiyini və qar düşdüyünü seyr edirik. Qlobal iqlim dəyişikliyi ilə bağlı alimlərin müxtəlif fikirlərini eşidirik. Kimin nə deməsindən, hansı səbəb göstərməsindən asılı olmayaraq iqlim dəyişikliyi həyatımızın bir parçası olub.

Ardı 7-ci səh.



# Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının videokonfrans formatında iclası keçirilib



Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının videokonfrans formatında 8-ci iclası keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikası Baş nazirinin müavini, Komissiyanın həmsədri Şahin Mustafayev və Çin Xalq Respublikası kommersiya nazirinin müavini, Çinin ticarət üzrə beynəlxalq nümayəndəsi (nazir səviyyəsində) Yuy Tzyanhua iclasa sədrlik ediblər.

Baş nazirin müavini Şahin Mustafayev iclası açaraq Azərbaycan-Çin əlaqələrinin qədim və zəngin ənənələrə malik olduğunu bildirib. Vurğulayıb ki, ölkələrimizi və xalqlarımızı birləşdirən sıx dostluq və əməkdaşlıq münasibətləri dövlət başçılarının səyləri ilə hazırda özünün dinamik və hərtərəfli inkişaf dövrünü yaşayır. Xüsusi olaraq qeyd edilib ki, cari ilin iyununda baş tutmuş telefon söhbəti zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Çin Xalq Respublikasının Sədri Si Cinpin iki ölkənin hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin inkişafını təşviq etmək üçün birgə səylər göstərməyə hazır olduğunu bildiriblər.

İqtisadi-ticari əlaqələrə toxunan Baş nazirin müavini postpandemiya dövründə mövcud potensialın reallaşdırılması sayəsində bu sahədə əməkdaşlığın əhatə dairəsinin genişləndiriləcəyinə əminliyini ifadə edib.

Çin şirkətlərini və investisiya fondlarını Azərbaycanda yaradılan sənaye zonalarına sərmayə yatırmağa dəvət edən Baş nazirin müavini Azərbaycan tərəfinin bu məsələdə hərtərəfli dəstək göstərməyə hazır olduğunu bildirib. Ələt Azad İqtisadi Zonasının, həmçinin Cəbrayıl rayonu ərazisində yaradılacaq "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının bu baxımdan cəlbediciliyi diqqətə çatdırılıb.

Nəqliyyat-tranzit sahəsində əməkdaşlığa toxunan Baş nazirin müavini Bakı Beynəlxalq Dəniz Ticarət Limanının, Ələt Azad İqtisadi Zonasının, həmçinin Bakı-Tbilisi-Qars dəmir yolunun Azərbaycanla Çin arasında nəqliyyat-tranzit sahəsində əməkdaşlığın genişləndirilməsinə mühüm töhfə verdiyini vurğulayıb.

Diqqətə çatdırılıb ki, bütün bu layihələr Çin Xalq Respublikasının "Kəmər və yol" təşəbbüsü və ümumilikdə regional əməkdaşlıq üçün böyük əhəmiyyət daşıyır. Azərbaycanın "Kəmər və yol" təşəbbüsünü rəsmi şəkildə dəstəkləyən ilk ölkələrdən biri olduğu məmnunluqla bildirilib.

Azərbaycan torpaqlarının işğaldan azad edilməsi ilə yaranan yeni geniş imkanlara toxunularaq xüsusilə də Zəngəzur dəhlizinin yaradılmasının çox böyük əhəmiyyət kəsb etdiyi vurğulanıb, onun "Kəmər və yol" layihəsinə də mühüm töhfə verəcəyinə əminlik ifadə olunub.

Rəqəmsal transformasiya və informasiya-kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıqdan məmnunluq ifadə edilib. Ş.Mustafayev "Huawei" şirkətinin Azərbaycandakı fəaliyyətini xüsusi vurğulayıb, şirkətin ən qabaqcıl texnologiyalarını işğaldan azad olunmuş ərazilərdə tətbiq etməsinin böyük məmnunluq doğurduğunu bildirib.

Baş nazirin müavini həmçinin Azərbaycanda istehsal edilən kənd təsərrüfatı və emalı məhsullarının Çinə ixrac imkanlarına toxunub, qeyri-neft sektoru üzrə ixrac baxımından Çin bazarının ölkəmiz üçün çox cəlbedici olduğunu bildirib.

İki ölkə arasında humanitar sahədə uğurlu əməkdaşlıq yüksək qiymətləndirilib, mədəniyyət, elm, təhsil və digər sahələrdə əlaqələrin daha da dərinləşdirilməsi üçün birgə səylərin vacibliyi vurğulanıb. Azərbaycanın Tayhu Dünya Mədəniyyət Forumunda yüksək səviyyədə iştirak etdiyi bildirilib, budəfəki tədbir çərçivəsində Tayhu Dünya Mədəniyyət Forumunun mənzil-qərargahının yerləşdiyi "Qədim Məskənlər Parkı"nda Heydər Əliyev Fondu tərəfindən yaradılan "Azərbaycan Mədəniyyətinə Pəncərə" adlı milli pavilyonun fəaliyyətə başlaması məmnunluqla qeyd edilib.

Ş.Mustafayev həmçinin COVID-19 pandemiyasının ilk günlərindən Azərbaycan və Çinin nümayiş etdirdiyi həmrəyliyi və qarşılıqlı dəstəyi yüksək qiymətləndirib, koronavirus xəstəliyi ilə mübarizə məqsədilə ölkəmizə göstərilən dəstəyə görə Çin hökumətinə və xalqına minnətdarlıq ifadə edib.

Çin Xalq Respublikası kommersiya nazirinin müavini Yuy Tzyanhua ölkəsinin Azərbaycan ilə iqtisadi-ticari əməkdaşlığa böyük əhəmiyyət verdiyini vurğulayıb. Qeyd edilib ki, Çin "Kəmər və yol" layihəsinin reallaşdırılması baxımından Azərbaycanı mühüm tərəfdaş hesab edir.

Y.Tzyanhua iki ölkə arasında elektron ticarət və investisiya sahələrində əməkdaşlıq üzrə işçi qrupların yaradılmasını və infrastruktur sahəsində əməkdaşlığa dair anlaşma memorandumunun imzalanmasını təklif edib.

Nəqliyyat-logistika sahəsində əməkdaşlığın davamlı inkişafının təmin edilməsi üçün birgə səylərin davam etdiriləcəyinə ümidvarlıq ifadə olunub.

İnvestisiya sahəsində əməkdaşlığın potensialının dərindən araşdırılmasının vacibliyini qeyd edən Y.Tzyanhua bildirib ki, Çin tərəfi Çin müəssisələrinin Azərbaycanda külək və digər bərpaolunan enerji, "ağıllı" şəhərlərdə rəqəmsal inkişaf, informasiya-kommunikasiya texnologiyaları və rabitə, sənaye parkları və digər sahələri əhatə edən layihələrdə iştirakının təşviqinə hazırdır.

Y.Tzyanhua Çinin Azərbaycanla koronavirus xəstəliyinə qarşı mübarizədə, eyni zamanda tibb və səhiyyə sahələrində uğurlu əməkdaşlığı davam etdirməkdə maraqlı olduğunu deyib. Qeyd olunub ki, Çin vaksin, dərman və tibbi ləvazimatların Azərbaycana ixracını davam etdirməyə hazırdır.

Bildirilib ki, Çin ikitərəfli ticarətin şaxələndirilməsi məqsədilə Azərbaycandan yüksəkkeyfiyyətli məhsulların idxalında maraqlıdır.

İclasda ikitərəfli ticarətin genişləndirilməsi, investisiyalar, rabitə və yüksək texnologiyalar, nəqliyyat daşımaları və logistika, həmçinin COVID-19-la mübarizə, tibb və səhiyyə sahələrində əməkdaşlığa dair məruzələr dinlənilib, təqdimatlar olub. İki ölkə arasında iqtisadi-ticari, nəqliyyat-tranzit, enerji, kənd təsərrüfatı, rəqəmsal inkişaf, turizm, mədəniyyət, təhsil və bir çox digər istiqamətlərdə əməkdaşlığın genişləndirilməsi perspektivləri geniş müzakirə edilib.

Sonda Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının 8-ci iclasının Protokolu imzalanıb.

# Milli Məclisdə Özbəkistan nümayəndə heyəti ilə görüş olub

Oktyabrın 27-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili ölkəmizdə səfərdə olan Özbəkistan Respublikası Prezidenti Administrasiyası yanında İqtisadi Təhlil və İslahatlar Mərkəzinin rəhbəri Obid Hakimovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin məlumatına görə, komitə sədri qonaqları salamlayaraq onları Milli Məclisdə görməkdən məmnun olduğunu bildirib. O, oktyabrın 24-də Özbəkistanda prezident seçkilərinin uğurla keçməsi və Şavkat Mirziyoyevin yenidən dövlət başçısı seçilməsi münasibəti ilə nümayəndə heyətinə təbriklərini çatdırıb.

İki ölkə arasındakı münasibətlərdən danışan Tahir Mirkişili dövlət başçılarının yüksək səviyyəli münasibətlərinin ikitərəfli əməkdaşlığımızda mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Qlobal reytinq cədvəllərində Azərbaycanın dünyada ən islahatçı ölkə kimi tanındığını deyən komitə sədri iqtisadiyyatın inkişafı, investisiya və biznes mühitinin daha da yaxşılaşdırılması ilə bağlı Azərbaycanda aparılan davamlı islahatlardan və bu istiqamətdə Milli Məclisin qarşısında duran çağırışlardan söz açıb.

O, Vətən müharibəsində Azərbaycanın Ermənistanın işğalına son qoyaraq əldə etdiyi Zəfərin regionda yaratdığı əməkdaşlıq imkanları barədə məlumat verib, azad edilmiş ərazilərdə görülən genişmiqyaslı quruculuq, kommunikasiyaların bərpası işlərindən bəhs edib, Özbəkistanın bu işlərdə iştirakı ilə bağlı fikirlərini səsləndirib.

Özbəkistan Respublikası Prezident Administrasiyası yanında İqtisadi Təhlil və İslahatlar Mərkəzinin direktoru Obid Hakimov təmsil etdiyi qurum haqqında məlumat verib, ölkəsinin qarşısına qoyduğu iqtisadi inkişaf hədəfləri barədə danışıb. Ölkənin islahatların ikinci mərhələsinə hazırlaşdıqlarını bildirən qonaq səfərlərinin məqsədinin Azərbaycanın iqtisadi inkişaf modelinin, əməkdaşlıq imkanlarının yaxından öyrənilməsi olduğunu qeyd edib. Görüşdə iştirak edən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli, komitə üzvləri deputat Rüfət Quliyev, Elnur Allahverdiyev və Məzahir Əfəndiyev qarşılıqlı ticarət dövriyyəsinin artırılması, iqtisadiyyatın müxtəlif sahələrində, xüsusən kənd təsərrüfatında əməkdaşlıq, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən layihələrdə birgə fəaliyyət və digər məsələlər barədə fikirlərini açıqlayıblar.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

# Koreya Milli Assambleyasının deputatı Azərbaycanın Vətən müharibəsi şəhidlərini yad edib

Koreya Respublikası Milli Assambleyasının deputatı, Koreya-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Cunq Hiyonq Vətən müharibəsinin birinci ildönümü ərəfəsində Azərbaycanın Koreyadakı səfirliyinə məktub ünvanlayaraq 44 günlük müharibədə həlak olan şəhidlərimizlə əlaqədar dərin hüznlə başsağlığı verib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin məlumatına görə, məktubunda gələn il Koreya ilə Azərbaycan arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd olunacağını bildirən deputat Cunq Hiyonq bu hadisəni əhəmiyyətli tarix kimi dəyərləndirib. Qeyd edib ki, gələcəkdə ölkələrimiz arasında münasibətlərin inkişafına dəstək verilməsində, dostluq və əməkdaşlığın gücləndirilməsində, o cümlədən işğaldan azad olunmuş Qarabağ bölgəsində sülhün qorunub saxlanması və bərpa layihələrinin icrasında Koreya-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü kimi öhdəsinə düşən vəzifəni layiqincə yerinə yetirəcək.

# ATƏT-in Cənub-Şərqi Avropada sahə missiyaları rəhbərləri bir sıra məsələlərlə bağlı fikir mübadiləsi aparıblar

Oktyabrın 26-27-də hibrid formatda ATƏT-in Cənub-Şərqi Avropada sahə missiyaları rəhbərlərinin regional toplantısı keçirilib.

Bu barədə AZƏRTAC-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Bildirilib ki, tədbirdə ATƏT Parlament Assambleyasındakı (ATƏT PA) Milli Məclisin nümayəndə heyətinin rəhbəri, ATƏT PA-nın vitse-prezidenti və Cənub-Şərqi Avropa üzrə xüsusi nümayəndəsi Azay Quliyev iştirak edib.

Tədbirə həmçinin Serbiyanın xarici işlər naiəri Nikola Selakoviç, ATƏT-in Baş katibi Helqa Şmidt, ATƏT-in Münaqişələrin Qarşısının Alınması Mərkəzinin direktoru Tuula Yuryelya, ATƏT-in Cənub-Şərqi Avropada sahə missiyaları rəhbərləri, region ölkələrinin ATƏT-dəki daimi nümayəndələri, eləcə də ATƏT-in digər institutlarının təmsilçiləri qatılıblar.

İkigünlük konfrans çərçivəsində COVID-19 pandemiyasının çoxtərəfli əməkdaşlığa yaratdığı əngəllər, Cənub-Şərqi Avropada sahə missiyaları fəaliyyətləri, qlobal və regional miqyasda terrorizmlə mübarizə, region ölkələrinin Avropa İttifaqına inteqrasiya məsələləri, eləcə də ATƏT Parlament Assambleyasının Helsinki prinsipləri mövzunda həyata keçirdiyi silsilə müzakirələr haqda fikir mübadiləsi aparılıb.

Konfransa ATƏT PA-nın Cənub-Şərqi Avropa üzrə xüsusi nümayəndəsi mandatı çərçivəsində qatılan Azay Quliyev tədbirdə çıxış edib. O, nitqində mandatına Cənub-Şərqi Avropada, xüsusən də Qərbi Balkanda barışığın və münasibətlərin bərpasının təşviq edilməsi məqsədilə cəmiyyətin bütün təbəqələri arasında, parlament səviyyəsində dialoqun dəstəklənməsi, həmçinin demokratik təsisatların transformasiyası və formalaşmasına töhfəsi, eləcə də regionda cərəyan edən əsas hadisələrlə bağlı Assambleyaya hesabat verilməsi, o cümlədən regiondakı məsələlərlə bağlı ATƏT və Parlament Assambleyasının müvafiq komitələrinin fəaliyyətinin koordinasiya edilməsi ilə bağlı məlumat verib.

Azay Quliyev regionda cərəyan edən gərginlikləri və cari durumun monitorinq edildiyini, yaxın gələcəkdə mandatı çərçivəsində ATƏT PA Prezidenti ilə birlikdə Türkiyəyə rəsmi səfərin həyata keçirilməsinin nəzərdə tutulduğunu qeyd edib. Həmçinin növbəti ay ərzində miqrantlarla bağlı durumun müzakirə edilməsi üçün Yunanıstana səfərinin həyata keçirilməsinin planlaşdırıldığını bildirib. Gələn il ərzində isə Serbiyada parlament, Bosniya və Herseqovinada isə ümumi seçkilərin ATƏT PA tərəfindən müşahidə edilməsinin gözlənildiyini söyləyib.

# Bakıda Azərbaycan İnvestisiya və Mədəniyyət Sammiti başlayıb

Oktyabrın 27-də Bakıda Azərbaycan İnvestisiya və Mədəniyyət Sammiti öz işinə başlayıb. İqtisadiyyat və Mədəniyyət nazirliklərinin dəstəyi, İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və İslam Əməkdaşlıq Təşkilatının Gənclər Forumunun (ICYF) təşkilatçılığı ilə keçirilən tədbirdə İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrin nazirləri, beynəlxalq təşkilatların və diplomatik korpusun təmsilçiləri, iş adamları, investorlar, startapçılar, gənclər təşkilatları, ümumilikdə 20-dən çox ölkədən nümayəndələr iştirak ediblər. Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş sammit oktyabrın 29-dək davam edəcək.



Tədbir İslam Əməkdaşlıq Təşkilatının ənənələrinə uyğun olaraq, müqəddəs Qurani-Kərimdən ayələrin oxunuşu ilə başlayıb.

AZƏRTAC xəbər verir ki, sammitin açılışında çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov İƏT-ə üzv ölkələri ortaq mədəni və dini dəyərlərin birləşdirdiyini, ölkəmizin təşkilatda üzvlüyə böyük önəm verdiyini vurğulayıb. Ötən illər ərzində təşkilat çərçivəsində Azərbaycana qarşı Ermənistanın işğalçılıq siyasəti ciddi şəkildə qınanıb, ölkəmizin haqlı mövqeyini müdafiə edən qətnamələr qəbul edilib. İƏT təkcə siyasi yox, həm də müsəlman ölkələri arasında iqtisadi-ticarət, investisiya, humanitar, elmi-texniki əməkdaşlığı təşviq edir. Bildirilib ki, Azərbaycan İnvestisiya və Mədəniyyət Sammiti təşkilata üzv ölkələr arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi və Azərbaycanın, o cümlədən Qarabağ və Şərqi Zəngəzur regionlarının investisiya potensialının tanıdılması baxımından əlverişli platformadır.

Nazir ölkəmizdə yaradılmış əlverişli investisiya və biznes mühiti, azad edilmiş ərazilərimizdə aparılan bərpa-quruculuq işləri, regional infrastruktur layihələri, Ələt Azad İqtisadi Zonası barədə ətraflı məlumat verib. Diqqətə çatdırılıb ki, Azərbaycan hökuməti işğaldan azad edilmiş ərazilərimizin dirçəldilməsi, regionun sülh və əməkdaşlıq bölgəsinə çevrilməsi istiqamətində genişmiqyaslı işlər görür. Oktyabrın 26-da Azərbaycan və Türkiyə dövlət başçılarının iştirakı ilə Füzuli Beynəlxalq Hava Limanının açıldığını vurğulayan iqtisadiyyat naziri Qarabağın bərpasının böyük iqtisadi önəm kəsb etdiyini, burada geniş regional inteqrasiya imkanlarını qeyd edib. Azərbaycan Qarabağda bərpa-quruculuq işlərinə tərəfdaş ölkələrdən investisiya cəlb olunmasında maraqlıdır. Hökumətimiz bu bölgəyə hazırda böyük sərmayələr yatırır. İşğaldan azad edilmiş ərazilərimizin iqtisadi reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-tranzit dəhlizlərinin imkanlarından faydalanmaq ölkəmizin inkişafına böyük təkan verəcək. Nazir Qarabağ bölgəsinin nəqliyyat-tranzit, bərpa olunan enerji, kənd təsərrüfatı, sənaye, dağmədən və digər sahələrdə böyük potensiala malik olduğunu diqqətə çatdırıb, İslam Əməkdaşlıq Təşkilatının, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv dövlətlərin sahibkarlarını azad edilmiş ərazilərimizə sərmayə yatırılmasında, bölgənin dirçəldilməsində fəal iştiraka dəvət edib.

Mikayıl Cabbarov dövlətimizin başçısı tərəfindən təsdiq edilmiş 2030-cu ilədək sosial-inkişafa dair Milli Prioritetlərə əsasən, hazırda 2022-2026-cı illər üzrə ölkəmizin ortamüddətli strateji inkişaf strategiyasının hazırlandığını və gələcəkdə istehsal fəaliyyətinə, investisiya alətlərinə, turizm sahəsinə və işğaldan azad edilmiş ərazilərə yeni vergi güzəştlərinin verilməsi məsələsinə baxılacağını diqqətə çatdırıb.

Açılış mərasimində Türkiyə Prezidentinin maliyyə ofisinin müdiri Göksel Aşan, Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov, Türkiyə Prezidenti yanında İnvestisiya Ofisinin rəhbəri Burak Dağlıoğlu, Dünya Etnosport Konfederasiyasının prezidenti Necmettin Bilal Erdoğan, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev, Türkiyənin sənaye və texnologiyalar nazirinin müavini Çetin Ali Dönməz, İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzinin (IRCICA) baş katibi Mahmut Erol Kılıç, KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və ICYF-nin prezidenti Taha Ayhan çıxış ediblər. Malayziyanın sabiq baş naziri Mahatir Mohamad isə sammit iştirakçılarına videomüraciət edib.

Sammitin ilk günü "Qarabağa investisiya qoyuluşu: perspektivlər", "İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin iqtisadi və ticarət perspektivləri: çağırışlar və imkanlar" və "PostCOVID dövründə iqtisadiyyatın bərpası üçün güclü startap ekosistemi" mövzularında panel müzakirələr təşkil olunub. Azərbaycan və İƏT ölkələrindən dövlət rəsmilərinin, iş adamlarının və startapçıların iştirakı ilə keçirilmiş panellərdə mövzu ətrafında çıxışlar edilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb. Sammit iştirakçıları tərəfindən xüsusi maraqla qarşılanan "Qarabağa investisiya qoyuluşu: perspektivlər" mövzusunda paneldə Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin iqtisadi və investisiya potensialı, 30 ilə yaxın müddət ərzində Ermənistan tərəfindən dağıdılmış və talan olunmuş ərazilərimizdəki vəziyyət, eləcə də hazırda Azərbaycan dövləti tərəfindən bu ərazilərdə həyata keçirilən quruculuq və bərpa işləri diqqətə çatdırılıb.

Tədbir çərçivəsində həmçinin İƏT ölkələrindən 50 yeni startapın təqdim olunduğu sərgi keçirilir. Sərgidə qida, kənd təsərrüfatı, "yaşıl" iqtisadiyyat, maliyyə texnologiyaları, onlayn tətbiqlər, ətraf mühit, yenilənən enerji, ağıllı texnologiyalar, hava nəqliyyatı, logistika və sair sahələr üzrə startap layihələr təqdim olunur. Sərginin məqsədi İƏT ölkələrindən olan gənc sahibkarların və startapların dünya miqyasında tanınmasına töhfə vermək, startapların layihələrinin investorlar tərəfindən maliyyələşdirilməsinə dəstək göstərməkdir. Məlumat üçün bildirək ki, sammit çərçivəsində layihəsini potensial investorlara təqdim etmək üçün ümumilikdə 61 ölkədən 500 startapçı müraciət edib, onların arasından 50 startap seçilib.

Qeyd edək ki, oktyabrın 28-də "İnvestisiya qərarlarında mədəni ölçü", "Startap layihələrinə investisiya qoyuluşu", "Davamlı inkişafa nail olmaqda texnoloji investisiyaların rolu" mövzularında panellər təşkil olunacaq, startapların sərgisi davam edəcək. Oktyabrın 29-da isə sammit iştirakçıları Şuşa və Füzuli şəhərlərinə səfər edəcək, Gəncə şəhərində Nizami Gəncəvinin 880 illiyi ilə bağlı mədəni tədbirlərdə iştirak edəcəklər.

# Azərbaycan və Türkiyədən olan din xadimləri Füzuli və Şuşaya səfər ediblər

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin dəvəti ilə Türkiyənin Diyanət işləri başqanı Ali Erbaşın rəhbərlik etdiyi nümayəndə heyətinin Qarabağa ikigünlük səfəri başlayıb.





AZƏRTAC xəbər verir ki, qonaqlar əvvəlcə Füzuli Beynəlxalq Hava Limanı ilə tanış olublar. Bildirilib ki, Qarabağın hava qapısı adlandırılan Füzuli Beynəlxalq Hava Limanı ən müasir səviyyədə inşa olunub. Hava limanının istənilən tip hava gəmisini qəbul etmək imkanları var. Uçuş-enmə zolağının uzunluğu 3000, eni isə 60 metrdir. Hava limanının müasir infrastrukturla təchiz olunan terminalı saatda ən azı 200 sərnişinin buraxılışına imkan verir.

Sonra din xadimləri Şuşaya səfər ediblər. Şuşaya səfər şəhərdə inşa olunacaq yeni məscidin ərazisinə baxış keçirilməsi ilə başlayıb. Sonra səfər iştirakçıları Qazançı kilsəsində aparılan təmir-bərpa işləri ilə tanış olublar. Din xadimlərinə yeni məscidin inşası, kilsələrin tarixi, məruz qaldıqları dağıntılar və görüləcək bərpa işləri barədə məlumat verilib.

Bildirilib ki, məscidin təməli bu il mayın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qoyulub. Bu məscid dini ocaq və modern memarlıq nümunəsi olacaq. Məscidin xarici səthi Şuşanın qədim məscidinin minarələrində istifadə edilən naxışlara uyğun bəzədiləcək.

Qazançı kilsəsi ilə tanışlıq zamanı məlumat verilib ki, Şuşada aparılan tikinti-quruculuq işləri çərçivəsində bu kilsə də əsaslı şəkildə bərpa edilir. Şəhərin yuxarı hissəsində yerləşən kilsənin 1868-1887-ci illərdə qədim zərdüşt məbədi üzərində inşa olunduğu bildirilir. Kilsə quruluş baxımından 4 yarımdairəvi çıxışdan ibarətdir. İşğal altındakı torpaqlarımızda olan digər abidələr kimi, ermənilər bu kilsəni də saxtalaşdırmağa cəhd ediblər. Hazırda kilsə tarixi mənşəyinə uyğun bərpa olunur.

Sonra din xadimləri Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəllərinə baxıblar. Məlum olduğu kimi, işğal dövründə ermənilər həmin heykəllərə qarşı vandallıq aktları həyata keçirib, onları Ermənistana apararaq əritmək istəyiblər. Lakin Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə heykəllər Ermənistandan alınaraq Azərbaycana gətirilib və Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa erməni işğalından azad olunandan sonra heykəllər Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən əvvəlki yerinə qaytarılıb.

Daha sonra Saatlı və Aşağı Gövhər ağa məscidlərini ziyarət edən nümayəndə heyətinə işğal illərində bu dini ocaqların məruz qaldığı dağıntılar, həmçinin hazırda orada aparılan bərpa işləri barədə məlumat verilib.

Yuxarı Gövhər ağa məscidində namaz qılınıb, dualar edilib, "Qurani-Kərim"dən ayələr oxunub.

Din xadimlərinin Şuşaya səfərinin birinci günü Bülbülün ev - muzeyi ilə yekunlaşıb. Onlar Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətlər göstərmiş, professional vokal məktəbinin təşəkkülü və təkamülündə mühüm rol oynamış Xalq artisti Bülbülün Şuşa şəhərindəki ev-muzeyini ziyarət ediblər. Şeyxülislam Allahşükür Paşazadə və Diyanət işləri başqanı Ali Erbaş Bülbülün ev-muzeyindəki xatirə kitabına ürək sözlərini yazıblar.

# Türkiyə Milli Müdafiə Universitetinin nümayəndələri xüsusi təyinatlı təhsil müəssisələrində olublar

Azərbaycanda səfərdə olan Türkiyə Respublikası Milli Müdafiə Universitetinin rektoru professor Erhan Afyoncunun rəhbərlik etdiyi nümayəndə heyəti Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Cəmşid Naxçıvanski adına Hərbi Liseyi ziyarət edib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, qonaqlara xüsusi təyinatlı təhsil müəssisələrinin tarixi və fəaliyyəti barədə məlumat verilib.

Nümayəndə heyəti təhsil müəssisələrinin ərazisi, tədris korpusları, maddi-texniki bazası və muzeyi ilə tanış olduqdan sonra tədris prosesini izləyib.

Professor E.Afyoncu təhsil müəssisələrindəki xatirə kitablarına ürək sözlərini yazıb.

Sonda qonaqlara komandanlıq adından hədiyyələr təqdim edilib.

# ABŞ səfiri Gəncədə erməni terroru nəticəsində həlak olanların xatirəsini yad edib

ABŞ-ın Azərbaycandakı səfiri Li Litzenberqer Vətən müharibəsi zamanı Gəncənin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulması nəticəsində dağılan ərazilərə baş çəkib.

AZƏRTAC xəbər verir ki, diplomat Ermənistanın mülki əhaliyə qarşı törətdiyi cinayətin izləri ilə tanış olub.



Qeyd edək ki, Azərbaycanın ikinci böyük şəhəri Gəncə ötən il 4, 5, 8, 11 və 17 oktyabr tarixlərdə raket və ağır artilleriya hücumlarına məruz qalıb. Ümumilikdə bu dəhşətli terror aktları nəticəsində 26 nəfər həlak olub, 140-dan çox şəxs yaralanıb, çoxsaylı mülki infrastruktur obyektlərinə və nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu



Vətən üçün doğulanlar

## İki müharibənin qəhrəmanı, inadından dönməyən qazi



Vətən müharibəsi bizə kimin kim olduğunu yaxşı tanıtdı. Qazancımız şanlı qələbə, tanıdıqlarımız isə Vətən üçün candan keçməyi bacaranlar oldu. Belə igid oğullarımızla fəxr edirik. Çünki onlar canlarını vətənimizə, torpağımıza, bu günümüzə, sabahımıza - tariximizə, mədəniyyətimizə tuşlanan düşmən gülləsinə sipər edənlərdir, şəhidlik zirvəsinə ucalanlar, bədənində qəlpə və onun yarasını gəzdirən qazilərimizdir.

Belə vətənpərvər qazilərimizdən biri də 1972-ci ilin avqust ayında Zəngilan rayonunun cənub-qərbində yerləşən gözəl iqlim şəraitinə malik Bartaz kəndində anadan olan, 1990-cı ildə orta məktəbi bitirərək, həmin ilin dekabrından Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında qulluq edən Zülfü Həsənəliyevdir.

Ağdam, Şuşa, Laçın, Ağdərə, Xocalı, Füzuli, Naxçıvan, bir sözlə, Azərbaycanın ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüşlərdə şücaəti ilə fərqlənən Zülfü Həsənəliyev Ağdam rayonunun Papravənd kəndində ağır yaralanıb. Müalicə olunduqdan sonra Daxili Qoşunların Komandiri, Milli Qəhrəman Sahil Məmmədovun və Rövşən Allahverdiyevin komandirliyi ilə 1992-ci ilin mart ayında Zəngilan rayonunun Qazançı, Ağkənd, Seyidlər kəndlərinin işğaldan azad olunmasında iştirak edib.

Keçmiş döyüşçü-qazi o illəri xatırlayaraq deyir ki,1992-ci il iyunun 29-da Zakif Abbasov və iyulun 10-da Natiq İmanov yaralanıb: "O zaman hərbi sürücü Yanvar Şahməmmədovun köməyi ilə yaralılar Zəngilan Rayon Mərkəzi Xəstəxanasına gətirildi. Bu illərdə Yanvar Şahməmmədovun xidmətlərini qeyd etmək yerinə düşər.

Onu da deyim ki, heç bir texnika Qazançı kəndinə girə bilmədiyi vaxtlarda Şahməmmədov Yanvar Famil oğlu ölümlə üzbəüz olurdu. Mərmi partlayışı nəticəsində komandir Sahil Məmmədov yaralandı. Onu döyüş meydanından çıxarmaq müşkül işə çevrildi. Lakin döyüş dostları və Milli Ordunun cəsur sürücüsü Yanvar Şahməmmədovla ermənilərin güclü atəşi və nəzarətində olan sahədən komandiri çıxarıb Zəngilan Rayon Mərkəzi Xəstəxanasına, oradan isə Bakıya göndərdik..."

Sahil Məmmədovu xəstəxanada qoyub, döyüş mövqeyinə qayıdan Zülfü Həsənəliyev axşam saatlarında mərmi partlayışı nəticəsində başından və ayağından yaralanır. Yenə də köməyə cəsur, qoçaq, ölümün gözünə dik baxan sürücü Yanvar Şahməmmədov çatır. O, Zülfünü Zəngilana, üç gündən sonra isə Bakıya, DİN-in Mərkəzi Xəstəxanasına gətirir.

Müalicəni başa vuran Zülfü Həsənəliyev döyüşlərdə göstərdiyi yüksək peşəkarlığa görə, DİN-in Zəngilan Rayon Polis Şöbəsinin əməkdaşı kimi işə qəbul edilir.

Qarabağın, o cümlədən Zəngilanın da erməni qaniçənlərindən azad edilməsində rayonun polis əməkdaşları da yaxından iştirak ediblər. Kilsə kəndində vaxtilə Zülfü Həsənəliyevin hərbi hazırlıq müəllimi olmuş Bərxudar Şıxalıyev öz həyatını təhlükəyə ataraq düşmənin uzunmüddətli atəş nöqtəsini susdurmaqla Zəngilan Rayon Polis Şöbəsinin bir qrup əməkdaşını, o cümlədən Zülfünü xilas etsə də, özü yaralanır.

Zülfü Həsənəliyev 44 günlük Vətən müharibəsində də Zəngilan rayonunun mənfur düşmənlərdən azad olunmasında iştirak edib, həmçinin Sərhəd Qoşunları Xidmətində bələdçi kimi sərhədçilərimizə dağlarda hərəkətlərinə yardımçı olub.

Hacı Zülfü Həsənəliyev bu günlərdə doğma Zəngilanını ziyarət edənlərdən biri olub. O, məşhur və müqəddəs məkan sayılan Xanazir pirini ziyarət edib, orada azan verərək əhd etdiyi qurbanlığı kəsib.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

## İnamın və birliyin zəfəri

2020-ci il sentyabrın 27-də işğalçı Ermənistan silahlı qüvvələri yenidən atəşkəs rejimini pozdular. Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinə qarşı əks-hücum əməliyyatına başlamalı oldu. Həmin gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində dedi: "Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda hərbi mövqelərimizi atəşə tutmuşdur. Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var".

O gün dövlət başçısı xalqa müraciətinin sonunda vurğuladı: "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

O gündən Azərbaycan xalqı bir arzuda, bir ümiddə birləşdi...

Xalqımız otuz ilə yaxın idi ki, Ermənistan silahlı qüvvələrinin işğalında qalan vətən torpaqlarının nisgilini, nigaranlığını çəkirdi. Bu elə bir dərd idi ki, hər bir azərbaycanlının qürurunu incidir, ürəyini dağlayırdı. Artıq dostlarımız da, düşmənlərimiz də yaxşı bilirdilər ki, bu xalq öz ərazilərinin işğalı ilə heç vaxt barışmayacaq. Ən böyük təsəlli və ümid isə dövlət başçısı İlham Əliyevin bu fikirləri uca kürsülərdən səsləndirməsi idi: "Azərbaycan xalqı və dövləti heç vaxt bu işğalla barışmayacaq".

Otuz ilə yaxın məkrli və qəddar düşmən öz bəd niyyətindən əl çəkmədi. Buna baxmayaraq, Azərbaycan dövləti humanistlik göstərərək münaqişənin sülh yolu ilə həllinin tərəfdarı olduğunu bəyan etmişdi. Təəssüf ki, beynəlxalq təşkilatlar üzərlərinə düşən vəzifələri yerinə yetirə bilmədilər. Nəticədə erməni qəsbkarları çəkinmədən işğal altında saxladığı ərazilərimizi viran qoydu, bütün tikililəri, eləcə də tarixi-mədəni, dini abidələrimizi dağıtdı, yerləyeksan etdilər.

Azərbaycan dövləti illər boyu məqsədyönlü işlər görərək güclü ordu qurmağa müvəffəq oldu. Azərbaycan xalqı uzun illər Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin əmrini gözlədi. 2020-ci il sentyabrın 27-də cənab İlham Əliyev qismən səfərbərlik elan etdi. Ali Baş Komandanın bu əmrini böyük coşqu ilə qarşılayan Azərbaycan xalqı o anlardan torpaqlarımızı qısa müddətdə Ermənistan silahlı qüvvələrinin işğalından azad etmək üçün bir yumruq kimi birləşdi.

Erməni qəsbkarlarının otuz ilə yaxın davam edən işğalına 44 gündə - İkinci Qarabağ müharibəsində son qoyuldu. Bu 44 günün hər saatı, hər anı Azərbaycan tarixinə yazıldı.

Vətənin qəhrəman övladları ilk gündən könüllü ordu sıralarına yazılaraq cəbhəyə yollandılar. 44 gün davam edən döyüşlərdə iştirak etməyənlər, əlinə silah almayanlar da özlərini Azərbaycanın əsgərləri bildilər. Hər bir azərbaycanlı cəbhədən gələn xəbərləri böyük həyəcan, ümid və inamla gözlədi.

Azərbaycan xalqı öz gücünə, dövlətinin qüdrətinə, ordusunun qələbəsinə inandı. Bu inam o qədər möhtəşəm və sarsılmaz idi ki, qarşısında düşmən tab gətirə bilməzdi. Yəni Ermənistan silahlı qüvvələrinin biabırçı məğlubiyyəti labüd idi.

Haqq yolunda döyüşdüyünə, ədalətli mübarizə apardığına əmin olan Azərbaycan Ordusu bu zəfərə layiq idi. Prezident İlham Əliyev İkinci Qarabağ müharibəsindən öncə də ordu quruculuğu işləri görüldüyünü diqqətə çatdırırdı. Dövlət başçısı çıxışlarının birində demişdi: "Biz güclü, iradəli ordu yaratmışıq. Bizim bütün silahlı birləşmələrimiz müasir standartlara cavab verir və döyüş tapşırığını şərəflə, vicdanla, cəsarətlə yerinə yetirir. Bu gün əks-hücum əməliyyatında bizim müxtəlif silahlı birləşmələrimiz iştirak edir və vahid komandanın rəhbərliyi altında əks-hücum əməliyyatı uğurla gedir. Bütün silahlı birləşmələr arasında koordinasiya tam şəkildə təmin edilib. Əminəm ki, bu əks-hücum əməliyyatının bundan sonra da uğurlu nəticələri olacaqdır".

Prezident, Ali Baş Komandan İlham Əliyevin əminliklə, vüqarla söz açdığı Azərbaycan Ordusunun möhtəşəm gücünü yalnız biz deyil, bütün dünya İkinci Qarabağ müharibəsinin ilk günlərindən gördü. Döyüşlərdə ən müasir silahlardan istifadə edən ordumuz sürətlə irəliləyərək, işğal altındakı ərazilərimizi yağılardan təmizlədi, düşmənin bütün hərbi texnikasını darmadağın etdi, canlı qüvvəsinə ciddi zərbə vurdu. Azərbaycan əsgəri öz torpağı uğrunda mərdliklə, qəhrəmancasına döyüşdü. Erməni əsgəri isə döyüş əməliyyatlarında mövqelərini, hərbi texnikasını, silah-sursatını qoyub qaçdı. Prezident İlham Əliyev xalqa müraciətlərinin birində xüsusi olaraq qeyd etdi: "Döyüşlərin obyektiv müşahidə mənzərəsi var və istənilən hərbi mütəxəssis görə bilər ki, bu gün Azərbaycan Ordusu döyüş meydanında qələbə əldə edibdir. Azərbaycan Ordusu öz üstünlüyünü göstərir, Azərbaycan əsgəri və zabiti yüksək mənəvi-psixoloji keyfiyyətlər göstərir, mənəvi ruh göstərir. Çünki biz öz torpağımızda vuruşuruq, öz torpaqlarımızı azad edirik. Ermənistanın əsgərləri işğalçılardır. Döyüş gedən torpaq onların torpağı deyil".

Azərbaycan dövlətinin, xalqının gücünü düşmən də etiraf etmək məcburiyyətində qaldı. Ermənistanın müdafiə naziri David Tonoyanın ölkəsinin imzaladığı bəyanatı xəyanət kimi qiymətləndirənlərə cavabı belə oldu: "Biz çox böyük bir qüvvəyə - supersilahlı Azərbaycan Ordusuna qarşı vuruşduq. Məndən "bəs siz niyə silahlanmadınız" deyə soruşa bilərsiniz. Biz də silahlı idik, ancaq kəmiyyət və resurslar baxımından imkanlar qeyri-mütənasib idi".

Beynəlxalq təşkilatların 30 il ərzində edə bilmədiklərini müzəffər Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi ilə qısa müddətdə reallaşdırdı.

İkinci Qarabağ müharibəsində bütün dünya Azərbaycan xalqının əzmini, ordumuzun döyüş qabiliyyətini gördü, vətənpərvər azərbaycanlıların milli birliyinin, öz Ali Baş Komandanını dəstəklədiyinin, onun ətrafında sıx birləşdiyinin şahidi oldu.

Qələbəmizin əsas şərti və mənbəyi xalqımızın həmrəyliyi, böyük inamla Ali Baş Komandanın ətrafında sıx birləşməsi, Azərbaycan Ordusunun məğlubedilməzliyi, hünəri və rəşadəti oldu. Bu birliyin qarşısında düşmən duruş gətirə bilmədi.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## 28 oktyabr ZƏFƏR gündəliyi 2020-ci il

Humanitar atəşkəs rejiminə riayət etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri oktyabrın 27-si gün ərzində və 28-nə keçən gecə cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və cəbhəboyu zonaya yaxın yaşayış məntəqələrimizi müxtəlif silahlardan atəşə tutur.

Döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Zəngilan və Qubadlı istiqamətlərində davam edir. Düşmənin hücum etmək cəhdlərinin qarşısı qətiyyətlə alınır, o, itki verərək geri çəkilir.

Ermənistandan toplanan hərbi vəzifəlilərin Azərbaycanın işğal olunmuş ərazilərinə göndərilməsi prosesi davam edir. İşğalçı dövlətdə döyüşlərə cəlb etmək məqsədilə 2000 nəfərdən ibarət heyətin toplanması barədə tapşırığın verilməsinə baxmayaraq, cəmi 300 nəfəri toplamaq mümkün olur. Hətta bir çox hərbi müqavilələr və polis əməkdaşları cəbhəyə getməkdən imtina edirlər.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin bölmələri gecə və səhər müxtəlif vaxtlarda Ermənistan-Azərbaycan dövlət sərhədində yerləşən yaşayış məntəqələrimizi və bölmələrimizin mövqelərini atıcı silahlardan atəşə tuturlar.

Həmçinin səhər saat 07:30, günorta 14:40 radələrində Ermənistan silahlı qüvvələri Tərtər, Bərdə və Goranboy rayonlarının ərazisini atəşə tuturlar.

❖ ❖ ❖


İlham Əliyev @azpresident · 44s
Erməni silahlı qüvvələrinin raketlərlə hücumu nəticəsində Bərdədə həlak olanlara Allahdan rəhmət diləyir, ailələrinə başsağlığı verir, yaralıların şəfa tapmasını diləyirəm. Bərdə sakinlərinin qisası yerdə qalmayacaq və döyüş meydanında işğalçılara layiqli cavab veriləcək.
774 2.588

Prezident İlham Əliyev özünün rəsmi "Tviter" səhifəsində paylaşım edir: Paylaşımda deyilir:

"Erməni silahlı qüvvələrinin raketlərlə hücumu nəticəsində Bərdədə həlak olanlara Allahdan rəhmət diləyir, ailələrinə başsağlığı verir, yaralıların şəfa tapmasını diləyirəm. Bərdə sakinlərinin qisası yerdə qalmayacaq və döyüş meydanında işğalçılara layiqli cavab veriləcək".

❖ ❖ ❖



Ermənistan ordusu Qubadlı istiqamətində gedən döyüşlər zamanı silahını, texnikasını qoyub qaçır. Azərbaycan Müdafiə Nazirliyi düşmənin atıb qaçdığı hərbi texnika və silah-sursatların fotosunu və videogörüntüsünü yayır.

❖ ❖ ❖


İlham Əliyev @azpresident · 1m
Müzəffər Azərbaycan Ordusu Zəngilanın Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli, Füzulinin Mandılı, Cəbrayılın Qazanzəmi, Xanağabulaq, Çüllü, Quşçular, Qaraağac,
297 1.388 6.064

İlham Əliyev @azpresident · 1m
Qubadlının Qiyaslı, Ədilcə, Qılıcan kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!
51 909 4.310

"Müzəffər Azərbaycan Ordusu Zəngilanın Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli, Füzulinin Mandılı, Cəbrayılın Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac, Qubadlının Qiyaslı, Əbilcə, Qılıcan kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

Bu barədə Prezident İlham Əliyev özünün rəsmi "Tviter" səhifəsində bildirir.

❖ ❖ ❖

Düşmən dezinformasiya yaymaqla törətdiyi hərbi cinayətlərdən diqqəti yayındırmağa çalışır.

Müdafiə Nazirliyinin yaydığı məlumatda qeyd edilir ki, Ermənistan mətbuatının Azərbaycan Ordusu tərəfindən Xankəndidə yerləşən Doğum evinin, guya, atəşə tutulması barədə xəbəri məqsədyönlü şəkildə yayılan dezinformasiyadır.

Bu məlumatla düşmən bir qədər əvvəl Bərdə şəhərində törətdiyi çoxsaylı insan tələfatı ilə nəticələnən hərbi cinayətindən diqqəti yayındırmağa çalışır.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər rayonunun ərazisini BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemlərdən və toplardan atəşə tuturlar.

❖ ❖ ❖



Birinci vitse-prezident Mehriban Əliyeva Ermənistan silahlı qüvvələrinin Bərdəyə növbəti dəfə raket hücumu ilə əlaqədar rəsmi "İnstaqram" səhifəsində paylaşım edir.

Paylaşımda deyilir:

"Bu gün Ermənistan silahlı qüvvələri dinc Azərbaycan şəhəri Bərdəyə növbəti dəfə qəddarcasına, qeyri-insani zərbə endiriblər. Zərbə nəticəsində 21 nəfər həlak olub, 70 nəfər ciddi xəsarət alıb. Təəssüf ki, qurbanların sayı artmaqda davam edir.

Bu cür vəhşicəsinə hücumlar onu göstərir ki, ermənilərin qəddarlığının həddi yoxdur. Üstəlik, Azərbaycanın dinc mülki əhalisinə hər bir hücumu Ermənistanın ağlını itirmiş hərbi-siyasi rəhbərliyinin total mənəvi tənəzzülünə dəlalət edir.

Bu hücumların məqsədi aydındır - Azərbaycan xalqını qorxutmaq və bizim ordumuzu Ermənistan ərazisinə cavab zərbəsi endirməyə məcbur etmək. Bu, üçüncü tərəfləri münaqişəyə cəlb etməyə imkan verərdi. Lakin düşmənimiz bilməlidir ki, heç nə bizi haqq yolundan dönməyə məcbur edə bilməz. Hər hücum bizi daha da güclü edir və işğal olunmuş ərazilərimizin erməni təcavüzkarlardan azad edilməsi kimi müqəddəs missiyanı başa çatdırmağın zəruri olmasına inandırır. Həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verir və yaralananların tezliklə sağalmalarını arzulayıram.

Azərbaycan Ordusu düşməni döyüş meydanında sıxışdırdığı bu günlərdə biz həmrəyliyimizi qoruyub saxlamalı və Prezidentimizin ətrafında möhkəm birləşməliyik.

Yalnız möhkəm yumruq kimi birləşməklə ədalətin zəfər çalmasına nail olacağıq, ona görə ki, Qarabağ Azərbaycandır!

Uca Tanrı Vətənimizi və Azərbaycan xalqını qorusun!"

❖ ❖ ❖



Prezident İlham Əliyev Rusiyanın "İnterfaks" Agentliyinə müsahibə verir. Azərbaycan Ordusunun uğurlu əməliyyatlarından danışan dövlət başçısı deyir ki, ordumuz döyüş meydanında özünün üstünlüyünü sübut etdi. İşğal edilmiş ərazilərin xeyli hissəsi bu bir ay ərzində azad olundu. Bu göstərir ki, Azərbaycan Ordusunun dünyada ən yaxşı döyüş qabiliyyətinə malik ordulardan biri hesab edilməsi əbəs deyildi.

Prezident bir daha əməliyyatların dayandırılması məsələsinə toxunur: "Biz Ermənistan tərəfindən onların yüksək rəhbərliyinin şəxsində öhdəlik almalıyıq ki, qoşunları işğal olunmuş ərazilərdən çıxaracaqlar. Hələlik biz bunu eşitməmişik. Erməni rəhbərliyindən bu cür öhdəlik alınandan və bu, ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən təsdiq ediləndən dərhal sonra biz hərbi əməliyyatları dayandırmağa hazırıq".

❖ ❖ ❖

Gün ərzində mülki infrastrukturu və dinc əhalini atəşə tutan düşmənin canlı qüvvəsi bölmələrimizin sərrast atəşi ilə məhv edilir. Bölmələrimizin dəqiq atəş zərbələrinə tab gətirə bilməyən düşmən döyüş meydanından qaçır.

Humanitar atəşkəs rejimini kobudcasına pozaraq şəhər və rayonlarımıza atəş açan düşmənin qüvvə və vasitələrini Azərbaycan Ordusunun bölmələri darmadağın edirlər.

***R.BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

Əvvəli 1-ci səh.

## ZƏNGƏZUR dəhlizi
### Asiya Avropaya birləşir

Vətən müharibəsindən sonra həyata keçirdiyi misli görünməmiş işlərə, yaratdığı reallıqlara isə ən yüksək dəyəri Rəcəb Tayyib Ərdoğan verdi: "Bugünkü səfərimiz zamanı Azərbaycanın işğaldan azad edilən bu bölgələrinin qısa müddət ərzində, həqiqətən, necə dirçəldiyini, necə sürətlə inkişaf etdiyini gördük. Bu, hər igidin, hər siyasətçinin işi deyil".

Bu, İlham Əliyevin qısa zamanda Qarabağda reallaşdırdığı böyük uğurlu işlərə dünyanın ən güclü dövlətlərindən birinin liderinin verdiyi yüksək qiymətdir.

### Avrasiyanın yeni bir nəqliyyat damarı açılacaq

Oktyabrın 26-da iki lider Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlini qoymaqla Zəngəzur dəhlizinin bərpasına start verdilər.

Başlanğıcını Füzulidən götürəcək bu yol Ermənistan sərhədinə qədər 123,6 kilometrdir. Yolun üzərində uzunluğu toplam 3610 metr olan 3 tunel tikiləcək. Hazırda Zəngilan ərazisində dördüncü tunel tikilir. Tuneldə artıq 160 metrlik iş görülüb.

Yol üstündə Zəngilan hava limanı da yerləşir. Bu yolun üzərində rayon mərkəzləri ilə hava limanını birləşdirən 7 qovşaq tikiləcək.

Zəngəzur dəhlizi eni 5 kilometr olan Laçın dəhlizindən fərqli olaraq ərazi dəhlizi deyil, nəqliyyat dəhlizi funksiyası rolunu oynayacaq. Bu yol həm Azərbaycanın böyük hissəsini Naxçıvanla əlaqələndirəcək, həm də Naxçıvan üzərindən Azərbaycan Türkiyə ilə birbaşa dəmiryolu və avtomobil yolu ilə əlaqə quracaq. Zəngəzur dəhlizi ilə Naxçıvana, oradan da İstanbula gedən yol da salınacaq.

Bir sözlə, Zəngəzur dəhlizi ilə Asiya Avropaya birləşəcək. İlham Əliyevin növbəti təşəbbüsü ilə qitələrarası iqtisadi, ticarət və nəqliyyat




tərəfdaşlığının inkişafına mühüm təkan veriləcək.

Təməlqoyma mərasimində liderlərin fikirləri təsdiq etdi ki, bu dəhlizlə Avrasiyanın yeni nəqliyyat damarı açılacaq. Zəngəzur dəhlizinin bütün türk dünyasını birləşdirəcəyini deyən İlham Əliyev bəyan etdi ki, həm Azərbaycan, həm Türkiyə Zəngəzur dəhlizinin gerçəkləşməsi üçün əməli addımlar atır və bu addımlar yaxın gələcəkdə öz bəhrəsini verəcək.

Rəcəb Tayyib Ərdoğan isə dəhlizin fəaliyyət istiqamətini dəyərləndirərkən bildirdi ki, bu yollar bölgədə çoxtərəfli daşımaların əsasını təşkil edəcək. Türkiyə isə bu fəaliyyətlərdə üzərinə düşəni yerinə yetirməkdə, qardaş Azərbaycana bütün imkanları ilə dəstək olmaqda davam edəcək.

Bu hayihənin reallaşması ilə bütün geosiyasi qüvvələr Azərbaycan və Türkiyənin mövqeyi, atdığı addımlar, uğurlu iqtisadiyyat və nəqliyyat layihələri ilə sözsüz ki, hesablaşacaqlar. Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad edilməsi Azərbaycan və Türkiyə, ümumilikdə, Avrasiyanın orta xəttində hər kəs üçün yeni bir səhifə açacaq.

Türkiyə Prezidentinin söylədiyi kimi, Azərbaycan dünyaya örnək olacaq inkişaf modeli ilə bölgənin inkişafı üçün fəaliyyətini uğurla davam etdirir. Bu fəaliyyəti həyata keçirən İlham Əliyev isə tarixinin ən qüdrətli Azərbaycanını böyük uğurlarla daha möhtəşəm gələcəyə aparır.

*Beləliklə, oktyabrın 26-da təməli qoyulan dəhlizin reallaşmasına startın verilməsi o deməkdir ki, tezliklə Azərbaycan xalqı 101 il bundan əvvəl əlindən alınmış Zəngəzura qayıdacaq. Bununla da İlham Əliyev daha bir tarixi ədaləti bərpa edəcək.*

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# “Qardaşların qürur günü”

## İki prezidentin Füzuli və Zəngilana səfəri qardaş ölkə mediasının əsas gündəm mövzusu oldu

**Möhkəm özüllər üzərində qurulmuş Türkiyə ilə Azərbaycan arasındakı qardaşlıq münasibətləri hazırda ölkə prezidentləri İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın rəhbərlikləri ilə ən yüksək səviyyədə uğurla inkişaf etməkdədir. Dövlət başçılarının qarşılıqlı rəsmi səfərləri hər iki ölkədə böyük sevinclə qarşılanır və bunlar bütün sahələr üzrə sıx əməkdaşlıq əsasında daha da möhkəmlənir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın respublikamıza son səfəri də qarşılıqlı münasibətlərin möhkəmlənməsinə yeni təkan verən mühüm hal kimi qiymətləndirilir.**

İki liderin Qarabağdakı son görüşü Türkiyənin bütün qəzetlərinin manşet mövzusu olub. Aparıcı televiziya şirkətləri, internet portalları Füzuli Beynəlxalq Hava Limanının açılışı və Zəngəzur dəhlizinin təməlqoyma mərasimlərindən materiallar yayıblar.

“Milliyət” qəzetinin “Regionda parlaq gələcək” başlıqlı xəbərində yazılır ki, hər iki dövlət başçısının səyləri nəticəsində bu gün dünya miqyasında Türkiyə və Azərbaycan əməkdaşlığı, qardaşlığı önəmli amilə çevrilib. Qeyd olunur ki, Azərbaycanın işğaldan azad edilən bölgələrinin qısa müddət ərzində necə dirçəldiyi, sürətlə inkişaf etdiyi aydın görünür. Rəcəb Tayyib Ərdoğanın “Bu, hər igidin, hər siyasətçinin işi deyil. Bu qədər qısa müddətdə bu investisiyaları yatırmaq, bu işləri həyata keçirmək, inanıram ki, doğma yurdundan ayrılmağa məcbur qalmış azərbaycanlı qardaşlarım üçün buradan bir müjdə vermək imkanı yaradır” fikirlərinin yer aldığı xəbərdə Azərbaycanın bütün dünyaya örnək olacaq inkişaf modeli ilə bu bölgənin inkişafı üçün fəaliyyətinin davam etdiyi vurğulanır.

“Sabah” qəzeti “Qardaşların qürur günü” başlıqlı məqaləni manşetdən verib. Prezident İlham Əliyevin “Əziz qardaşım, hörmətli Cümhurbaşqanı ilk saatlarda Azərbaycana dəstək göstərdi, bütün dünyaya bəyan etdi ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır” fikirlərinin yer aldığı məqalədə qeyd olunur ki, artıq quruculuq və bərpa dövründə də Türkiyə tərəfindən Can Azərbaycana hərtərəfli dəstək nümayiş olunur.

“Türkiyə” qəzetinin “Qarabağa türk möhürü” başlıqlı xəbərində yazılır ki, İlham Əliyev R.T.Ərdoğanla birlikdə Zəngilan rayonunda ilk özəl sərmayə layihəsinin təməlini qoydu. “Türkiyə və Azərbaycanın birgə layihəsi olan sərmayə bir daha onu göstərir ki, hər iki ölkə işğaldan azad edilmiş torpaqlarda gedən quruculuq, bərpa işlərində də çiyin-çiyinə bir yerdə irəliləyir” deyə məqalədə qeyd olunur.

“Akşam” qəzeti “Əliyevdən Ərdoğana tərif” başlıqlı xəbərində vurğulanıb ki, Azərbaycan hansı sahədə ehtiyac duyarsa, Türkiyə hər cür dəstəyi verməyə hazır olduğunu dəfələrlə bəyan edib. Azərbaycan Prezidentinin “Öz milli ləyaqətini qoruyan, öz xalqının, dövlətinin maraqlarını, qürurunu qoruyan və müdafiə edən Lider bu gün buradadır, Azərbaycandadır, Zəngilandadır, Ağalıdadır. Biz bunu qiymətləndirməliyik. Bütün türk dünyası üçün Rəcəb Tayyib Ərdoğan amili ən önəmli amillərdən biridir” fikirlərinin yer aldığı məqalədə müəllif bunu əsl qardaşlıq, dostluq nümunəsi kimi qələmə alıb.

“Yeni akit” qəzeti “Qardaşlıq dəhlizi” başlıqlı xəbərində Zəngəzur dəhlizinin - Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlinin qoyulması mərasiminə geniş toxunub. Qeyd olunub ki, Zəngəzur dəhlizi yolunda Ağbəndə, Ermənistan sərhədinə qədər məsafə 123,6 kilometrdir. Yolun üzərində toplam uzunluğu 3610 metr olan 3 tunel var.

“Yeni Şafak” qəzeti isə “Qarabağ dünyaya açıldı” başlıqlı xəbəri manşetdən təqdim edib. İlham Əliyev və R. T. Ərdoğanın birgə açılışını etdikləri Füzuli Beynəlxalq Hava Limanının rəmzi açarlarının prezidentlərə təqdim edildiyini diqqətə çatdıran nəşr yazır ki, Qarabağın hava qapısı adlandırılan Füzuli Beynəlxalq Hava Limanı ən müasir səviyyədə inşa olunub. Uçuş-enmə zolağının uzunluğu 3000, eni isə 60 metrdir. Hava limanının müasir infrastrukturla təchiz olunan terminalı saatda ən azı 200 sərnişinin buraxılışına imkan verir.

“Diriliş Postası” qəzeti “Qarabağ Füzuli ilə dünyaya açıldı” başlıqlı xəbərində yazır ki, Türkiyə Prezidenti Füzuli Beynəlxalq Hava Limanının ilk rəsmi sərnişini oldu. Vurğulanır ki, hava limanında ICAO və IATA standartlarına müvafiq qaydada uçuşların başlanması mümkündür. Sərnişinlərin rahatlığı üçün bütün meyarlar diqqət mərkəzində saxlanılıb.

“Karar” qəzeti “Azad Zəngilan görüşü” başlıqlı xəbərində şəhər barədə məlumat verir. Bildirilir ki, Zəngilan rayonunun Ağalı kəndində həyata keçirilən “ağıllı kənd” layihəsinin icrası ilə bağlı 110 hektardan çox ərazidə tikinti işləri aparılır. Tam izolyasiya olunmuş 200 fərdi ekoloji evin, ikimərtəbəli 4 qeyri-yaşayış binasının, 360 şagird yerlik məktəbin və 60 yerlik uşaq bağçasının tikintisi sürətlə davam etdirilir.

“DHA” xəbər agentliyi Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Füzuli Beynəlxalq Hava Limanının açılışı mərasimindəki iştirakı barədə silsilə materiallar verib. Oxuculara təqdim olunan materiallarda hər iki dövlət başçısının Zəngilana səfərləri barədə məlumatlar yer alıb.

“AHaber” kanalı dövlət başçılarının görüşünü “Ağalı kəndində Ərdoğana böyük diqqət” sərlövhəsi ilə çatdırıb. Bu xəbərdə Prezident İlham Əliyevin postmüharibə dövründən sonra işğaldan azad olunan torpaqlarda aparılan quruculuq işləri ilə bağlı, eyni zamanda, Türkiyənin ədalətli və qardaşlıq mövqeyinə dair fikirləri yer alıb. Kanal Türkiyə Prezidentinə istinadla yazır: “Emənistan Azərbaycan ilə problemlərini həll etmək istiqamətində səmimi bir iradə göstərməlidir. Əgər Azərbaycan ilə bağlı səmimi iradə ortaya qoyarsa, Türkiyənin Ermənistan ilə əlaqələrinin də normallaşması üçün bir maneə qalmayacaq. Bütün bölgə üçün birlikdə qurulacaq firavan gələcəyi kiçik hesablara və daxili siyasətə qurban vermək vaxt itkisi mənasına gələcək. Dünyanın bu gözəl bölgəsində sülh içində yaşanacaq parlaq bir gələcək, əlbəttə ki, mümkündür”.

Qəzetlərdən “Posta” “Hava limanında anlamlı açılış”, “Yeniçağ” “İlk rəsmi sərnişin Ərdoğan oldu”, “Hürriyet” “Qalıcı barışa ən əlverişli ortam” və “Türkgün” “Qardaşlar görüşdü” başlıqlı xəbərləri oxuculara çatdırıb.

“Haber Global”, “Habertürk” kanallarında, “sondakika.com”, “haberle.com” və digər xəbər agentliklərində dərc edilən yazılarda R.Ərdoğanın Qarabağa səfəri xüsusi olaraq qeyd edilib. Bildirilib ki, azad Qarabağ qısa müddət ərzində qurulacaq və 28 illik həsrətdən sonra məcburi köçkünlər yenidən doğma torpaqlarına qayıdacaqlar. Bütün bunların fonunda isə Azərbaycan-Türkiyə qardaşlığı, dostluğu və strateji müttəfiqliyi sarsılmaz və əbədidir.

*Elçin CƏFƏROV,*
*“Azərbaycan”*



































































QARABAĞ
dirçəliş yolundadır



◆ Zəfərin izi ilə

**Bu ev bir vaxtlar Şuşanın ən möhtəşəm və dəbdəbəli ünvanlarından idi...**
**Bu evdə yalnız Qarabağın deyil, bütün Azərbaycanın fəxrinə, qüruruna çevrilmiş şəxsiyyətlər dünyaya gəlmiş, yaşamış, qonaq olmuşlar...**
**Bu evdə Azərbaycan milli müqavimət hərəkatının - ilk qisas təşkilatımız olan "Difai"nin tariximizin şanlı səhifələrinə çevrilən fəaliyyətinin planları hazırlanmışdır...**
**Bu ev Prezident İlham Əliyevin tapşırığı ilə Şuşada bərpa edilən ilk tarixi-memarlıq obyektlərinin sırasına salındı...**
**Bu ev Mehriban xanım Əliyevanın şəxsi nəzarəti və himayəsi ilə yeni Şuşanın qədim nümunəsi kimi kərpic-kərpic ucaldılır...**
**Bu ev Azərbaycan tarixinin ən köklü, sanballı, qəhrəman sülalələrindən olan Mehmandarovların malikanəsi - Azərbaycanın müqəddəs ocağıdır...**

Əvvəl



İndi



Əvvəl



İndi



Əvvəl



İndi



# Şuşanın incisi

## Prezident İlham Əliyevin göstərişi ilə bərpa olunan Mehmandarovların evi şəhərin tarixi ünvanlarından biri kimi keçmiş şöhrətini tezliklə özünə qaytaracaq

### Mirzə Əli bəyin evi

Şuşada olarkən şəhərin tarixi və görməli yerləri ilə bağlı əvvəldən planlaşdırdığımız marşrutlardan biri də bu malikanəyə getmək idi. Çünki Azərbaycanın XVIII əsr mülki memarlığının ən maraqlı nümunələrindən olan bu malikanədə saxta tarix yaratmaq istəyən ermənilər vandallıq edərək onu dağıtmışdılar. Amma gördüyümüz mənzərə daha dəhşətli idi. Nəinki bu malikanə, Şuşadakı bütün tarixi binalar erməni barbarlığının qurbanı olmuşdur.

Şuşanın milli ruhu təkcə onun qədim yerləri, tarixi abidələri ilə məhdudlaşmır, bu ruhu həm də Şuşanın adlı-sanlı şəcərələri, nüfuzlu nəsilləri daşıyır. Hətta elə nəsillər var ki, onların yalnız soyadları tarixi bir iftixar mənbəyidir. Onların vaxtilə inşa etdikləri binaların hər biri özündə Şuşanın tarixini yaşadır. Mehmandarovların malikanəsi kimi. Mehmandarovlar özləri isə Şuşa ilə birgə andığımız, Şuşa ilə qoşa xatırladığımız qürurlu simalardır. Bu nəslin görkəmli nümayəndələrindən biri də Mirzə Əli bəy idi.

Qarabağ xanlığının idarəetmə aparatında bir çox hərbi və mülki vəzifələr vardı. Bu vəzifələrdən biri də mehmandar ("qonaqpərvər", "qonaqsevər") idi. Mehmandarın vəzifə borcu xarici dövlətlərin nümayəndələrini və digər rəsmi qonaqları ölkənin sərhədində qarşılayıb, müşayiət edərək hörmət və ehtiramla xanlığın paytaxtına gətirib yerləşdirmək, yedirib-içirmək, onların istirahətlərini yüksək səviyyədə təşkil etmək və başqa xidmətlər göstərmək, eyni zamanda, gələn qonaqların məktublarını saraya, xanın məktublarını isə onlara çatdırmaq idi. İş başında olarkən mehmandarı 100 atlıdan ibarət silahlı dəstə müşayiət edirdi. Qarabağ xanı İbrahimxəlil xan Cavanşirin və oğlu Mehdiqulu xanın hakimiyyətləri dövründə isə bu məsuliyyətli vəzifəni Mirzə Əli bəy həyata keçirirdi. Mirzə Əli bəy vəzifəsini yüksək səviyyədə və layiqincə icra etmişdi. Elə bu məziyyətlərindən də irəli gələrək İbrahimxəlil xan ona "bəy" titulu vermiş, savadlı olduğuna görə isə hər kəs tərəfindən "mirzə" deyə çağrılmışdı.

Sonradan şəcərəsi onun şərəfinə Mehmandarov soyadını götürmüş və bu fəxarətli soyadı daşıyan xeyli vətənpərvər, ziyalı azərbaycanlı yetişərək xalqımızın həyatında müstəsna rol oynamış, öz adlarını qızıl hərflərlə Azərbaycan tarixinə həkk etmişdilər.

Mirzə Əli bəy yaşı ilə əlaqədar mehmandarlıq vəzifəsindən istefaya çıxarkən Mehdiqulu xan Cavanşir bir çox mükafatlarla yanaşı, ona Şuşanın "Təzə məhəllə"sində əlavə torpaq sahəsi də bağışlamışdı. Mirzə Əli bəy də burada dövrünün məşhur memarı Kərbəlayi Səfixan Qarabağiyə memarlıq üslubu, ehtişamı ilə digər heç bir binaya bənzəməyən cah-cəlallı malikanə ucaltdırmışdı. Malikanədə böyük yaşayış binası, kiçik yaşayış binası və ailə məscidi inşa olunmuşdu. Sütunlu və günbəzli məscid həm də məhəllə məscidi funksiyasını yerinə yetirirmiş. Sonradan evin yerləşdiyi əraziyə bulaq da çəkilmişdi.

### Milli memarlığımızın nümunəsi

Mirzə Əli bəyin evi kvadrat formaya malik idi. İkinci mərtəbənin dörd otağından üçü evin yan tərəfindəki verandaya, qonaq zalı funksiyasını yerinə yetirən böyük otaq isə lakonik əsas fasada açılırdı. Simmetrikliyin olmamasına baxmayaraq, evin əsas fasadı hissələrin harmonikliyi təəssüratını yaradırdı. Binanın yan fasadında yerləşən pilləkən və taxta veranda onun ümumi görünüşünü ağırlaşdırmırdı. Binanın memarlığında geniş pəncərələri vasitəsilə yaxşı işıqlandırılmış və zəngin bəzədilmiş qonaq zalı xüsusi yer tuturdu.

Evinin daxili bəzək işlərini isə Mirzə Əli bəy zəmanəsinin məşhur dekorativ boyakarlıq və ornament ustası Usta Qənbər Qarabağiyə əmanət etmişdi. Usta Qənbərin "Mehmandarovların imarəti"ndə sərgilədiyi möhtəşəm əl işinin şöhrəti isə Azərbaycanın hüdudlarından da kənara aşmışdı. Mehmandarovun evindəki ornamentli və süjetli pannolar Usta Qənbər Qarabağinin ilk əsərlərindən hesab olunurdu.

Mehmandarovların evinin plafonu ümumi kompozisiya baxımından Şəki xan sarayı və Şəkixanovların evinin plafonlarını xatırlatsa da, onun naxışları rəng və kompozisiya baxımından xalçaçılıq motivlərinə daha yaxın idi. Qarabağ xalçaçılıq məktəbinə xas mərkəzi medalyonlu və zəngin bəzədilmiş künc naxışlı xalçalarda həmin kompozisiyanın analogiyasını görmək mümkün idi.

Bu evdə sonralar Mehmandarovlar nəslinin görkəmli nümayəndələrindən biri - Sankt-Peterburq Tibb Cərrahlıq Akademiyasının məzunu, tanınmış həkim Kərim bəy Mehmandarov yaşamışdır. Kərim bəy Mehmandarov Mirzə Əli bəyin sonbeşik oğlu Mustafa bəy Mehmandarovun övladıdır. Mirzə Əli bəyin böyük oğlanları Mirzə Həsən bəy və Mirzə Sadıq bəy idi.

Kərim bəy Mehmandarov 1905-ci il hadisələrindən sonra Şuşada evində xəstəxana və yetim qalmış uşaqlar üçün məktəb, qiraətxana açmışdı. Ömrü boyu xalqının rifahı və tərəqqisi üçün çalışıb-vuruşan Kərim bəy 1905-1906-cı illərdə də Şuşanın və şuşalıların ən böyük hamisi, qoruyucusu, qəhrəmanı kimi ad qazanmışdı. O, həm də "Difai" təşkilatının Şuşa şöbəsinin sədri idi. Azərbaycanın ilk milli hərbi-siyasi partiyası olan "Difai"nin bünövrəsi 1906-cı ildə Şuşada qoyulmuşdu. "Difa"inin əsas fəaliyyəti Şuşada cərəyan etmiş, burada Kərim bəyin başçılığı ilə həyata keçirilən iclaslarda mühüm qərarlar qəbul olunmuşdu.

Ümumiyyətlə, Mehmandarovlar soyu xalqımızın həyatında müstəsna rol oynayan onlarca tanınmış nümayəndələrindən ibarətdir. Hüquqşünas, çar dövründə dövlət qulluqçusu olmuş Sadıq bəy Mehmandarov, Azərbaycan Xalq Cümhuriyyətinin hərb naziri Səməd bəy Mehmandarov, Lənkəran şəhərinin rəisi, Səməd bəy Mehmandarovun qardaşı Nağı bəy Mehmandarov, SSRİ Tibb Elmləri Akademiyasının həqiqi üzvü Mixail Tuşinski (Mixail bəy Kərim bəy oğlu Mehmandarov), "Partizan Aliyə" adı ilə tanınan, Böyük Vətən müharibəsində saysız qəhrəmanlıqlara imza atmış Aliyə Rüstəmbəyova, tibb elmləri doktoru, professor, Əməkdar həkim Məhbubə xanım Mahmudbəyova və digərləri...

Səməd bəy Mehmandarovun adı tariximizdən bizə yaxşı məlumdur. Qısa fəaliyyəti dövründə 30 minlik ordu yaratmağa nail olan Səməd bəy Mehmandarov Azərbaycan Xalq Cümhuriyyəti ordusunun quruculuğunun memarı idi.



Mirzə Mustafa bəy Mehmandarov



Kərim bəy Mehmandarov



Məhbubə xanım Mehmandarova - Mahmudbəyova















Mixail Tuşinski 1882-ci ildə Sankt-Peterburq şəhərində anadan olmuş, mükəmməl təhsil alaraq atası kimi tibbə yönəlmiş və bu sahədə zirvəyə qədər yüksələrək adını ilk azərbaycanlı akademik olaraq tariximizə silinməz hərflərlə həkk etmişdir. O, 1945-ci ildə SSRİ Tibb Elmləri Akademiyasının həqiqi üzvü seçilmişdi. Görkəmli alim ilk dəfə 1929-cu ilin payızında Şuşaya gələrək atası Kərim bəylə görüşmüş və həyatının ən unudulmaz həmin ilindən ömrünün sonuna kimi müntəzəm olaraq Azərbaycana, Şuşaya gəlmiş, doğma qohumları ilə görüşmüş, onlarla daim məktublaşmışdır.

Kərim bəy Mehmandarovun qızı Məhbubə xanım Mehmandarova Azərbaycanın ilk maarifçilərindən olan Həbibbəy Mahmudbəyovun ocağına gəlin gəlmiş, görkəmli ictimai xadim Şamil bəy Mahmudbəyovla ailə həyatı qurmuşdu. Məhbubə Mahmudbəyova 1933-70-ci illərdə Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki Tibb Universiteti) Mama-ginekologiya kafedrasının dosenti, sonra professor və müdiri işləmiş, 1968-1974-cü illərdə respublikanın Mama-ginekoloqları elmi cəmiyyətinin sədri olmuşdu. Tədqiqatını əsasən, qadın, ana və uşağın sağlamlığının qorunması probleminə həsr etmişdi. "Ürək-damar sistemi xəstəlikləri zamanı hamiləlik və doğuş" monoqrafiyası (1973) böyük elmi-praktiki əhəmiyyətə malikdir.

Bu gün də Mehmandarovlar nəslinin nümayəndələri dədə-babalarının nəcib soyunu fəxarətlə davam etdirir, məşğul olduqları sahələrdə yüksək nailiyyətlər qazanır, Azərbaycan dövlətinə şərəflə xidmət edirlər.

### Düşmənə baş əymədiyi, saxtakarlığı qəbul etmədiyi üçün vandallığa məruz qaldı

İşğal dövründə düşmən Qarabağın mirvarisi, milli mədəniyyətimizin ünvanı Şuşada Azərbaycanın tarixinin və milli mədəniyyətinin izlərini itirmək üçün çox cəhd göstərib, lakin bunu bacarmayıb. Mehmandarovların evində olduğu kimi... Ona görə bu ev də işğal illərində vəhşiliyə, vandallığa məruz qalıb.

...Malikanədə aparılan təmir-bərpa işləri barədə reportaj hazırlamaq üçün Şuşanın "Yeni məhəllə" deyilən səmtinə gedirik. Bir vaxtlar Şuşanın tanınmış ailələrinin yaşadığı bu məhəllədə düşmənin dağıtdığı, xarabazarlığa çevirdiyi binaların arası ilə irəlilədikcə erməni vəhşiliyindən doğan səssizliyi bu malikanədən gələn tikinti səsləri pozur. Öyrənirik ki, Heydər Əliyev Fondu tərəfindən bu tarixi malikanədə başlanan kompleks təmir-bərpa işləri sürətlə davam edir.

Xatırladaq ki, kompleks ilk dəfə 1977-1978-ci illərdə Azərbaycan SSR Mədəniyyət Nazirliyi tərəfindən pasportlaşdırılıb. Bu həmin dövr idi ki, Ulu Öndər Heydər Əliyevin təşəbbüsləri ilə Şuşanın mədəni tarixi irsinin qorunması və təbliği ilə bağlı mühüm tədbirlər həyata keçirilirdi. 1977-ci ilin avqust ayında Azərbaycan SSR Nazirlər Soveti Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul etdi. Bu qərar Şuşanın tarixi abidələrinin bərpası və onun Azərbaycan şəhəri kimi inkişafında ən vacib addım oldu. Bundan sonra şəhərin XVIII-XIX əsrlərdə tikilmiş binaları və tarixi abidələri bərpa olundu. Uzun illərdən bəri baxımsızlıq üzündən uçulub dağılmış qala divarları, Qara Böyükxanım məqbərəsi, K.Əsgərov küçəsindəki məscid, mərkəzi rayon xəstəxanasının ərazisindəki qala bürcləri və divanxana öz əvvəlki görkəminə qaytarıldı. O cümlədən Mehmandarovların evi də qeyd etdiyimiz kimi pasportlaşdırıldı.

Böyük yaşayış binası sovet dövründə Şuşa Şəhər Xəstəxanası kimi fəaliyyət göstərib. Kiçik yaşayış binasında isə 1987-ci il tarixdən Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin (indiki Azərbaycan Milli Xalça Muzeyi) Şuşa filialı fəaliyyətə başlayıb. 1992-ci ildə Şuşa şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən işğala məruz qaldığı üçün filialdakı daşınması mümkün olan eksponatlar təxliyyə olunaraq Bakıya gətirilib.

Öyrənirik ki, işğaldan sonra kompleksə daxil olan böyük bina tamamilə dağıdılıb. Yalnız bir tərəfinin divarının qalıqları qalmış binanı bərpa etmək mümkün deyil. Kiçik yaşayış binası işğalçılar tərəfindən tarix muzeyi kimi istifadə edilib. Məscidi isə geologiya muzeyi ediblərmiş. Düşmən böyük yaşayış evini erməniləşdirə bilmədiyi üçün dağıdıb.

İkimərtəbəli olan kiçik evdə və məsciddə təmir-bərpa işləri həyata keçirilir. Bərpa və quruculuq prosesi Şuşanın orijinal memarlıq üslubuna uyğun olaraq gerçəkləşdirilir. Öyrənirik ki, evin və məscidin həm xarici fasadı, həm də daxili quruluşu tarixi görkəmi qorunmaqla bərpa olunur. Evin ikinci mərtəbəsinin tavanında vaxtilə çəkilmiş rəsm əsərlərinin izləri hələ də qalmaqdadır. İş icraçısı deyir ki, təmir zamanı divarlar qaşındıqca milli memarlığımızın izlərinə rast gəlirlər. Ustalar bildirdilər ki, tavandakı rəsm o qədər keyfiyyətlə çəkilib ki, sonradan onun üzərinə əlavə olunan rənglər belə, rəsmi sıradan çıxarmayıb. Bəli, düşmən nə qədər çalışsa da, bu binada xalqımıza məxsus olan dəyərləri silə bilməyib. Çünki bu dəyərlərin heç biri saxtakarlığı qəbul etmir.

İşğal dövründə ermənilər tərəfindən binanın quruluşuna əlavə edilən yad elementlərin hamısı ləğv edilir, hər şey orijinal görkəminə qaytarılır. Bu barədə məlumat verən işçilər bildirdilər ki, ermənilərin işğal dövründə binada quraşdırdıqları şüşəbənd artıq sökülüb. Binanın ikinci mərtəbəsinə çıxmaq üçün bayırdan inşa etdikləri taxta pilləkən də sökülcək. Restavrasiya sentyabr ayında başlayıb. Bütün işlər 4-5 aya başa çatacaq. Onu da qeyd edək ki, Ermənistanın Şuşaya atdığı "İsgəndər" raketi Mehmandarovların evinin yaxınlığına düşüb.

Mehmandarovların malikanəsinin üzləşdiyi vandallıq, böyük yaşayış evinin dağıdılması olduqca ağır mənzərədir. Budur erməni vəhşiliyi, erməni vandalizmi. Budur mədəniyyət düşmənçiliyi...

*Amma bu evi ucaldanların, vaxtilə burada yaşamış Mehmandarovlar soyunun həyatdan köçmüş nümayəndələrinin ruhu şaddır. Çünki artıq bu malikanə düşmənin əlində deyil. Çünki indi bu malikanə Prezident İlham Əliyevin göstərişi, Mehriban Əliyevanın himayəsi ilə Heydər Əliyev Fondu tərəfindən bərpa olunur, əvvəlki görkəminə qaytarılır...*

**Rəşad CƏFƏRLİ,**
**"Azərbaycan"**
*Bakı-Şuşa-Bakı*







# Müzəffər Sərkərdənin qüdrətli Ordusu



# Qələbədən yeni reallıqlara doğru

**Azərbaycan onillər boyu sülh danışıqları aparanda da, 44 günlük müharibə ilə əsrlərin problemini həll edəndə də nə istədiyini yaxşı bilirdi. Bu müharibə bizə torpaqlarımızı düşməndən təmizləmək, işğalçı ermənilərə sərf edən şəkildə dondurulmuş münaqişənin buzunu əritmək, status-kvonu ortadan götürmək, yeni reallıqlar yaratmaq, haqq-ədaləti bərpa etmək, məcburi köçkünlərimizin əzəli yurdlarımıza qayıdışına nail olmaq üçün lazım idi.**

Bütün bu baş verənlər sanki 30 ilədək sürən bir röyaymış. Vətən müharibəsində qazandığımız böyük Qələbə indi o nisgilləri ovudur, yaraları sarıyır, keçmişin dərslərindən nəticə çıxararaq gələcəyə yönəlməyə, zəfəri inkişaf nailiyyətləri ilə daha da böyütməyə, möhkəmləndirməyə, yeni başlanğıclara doğru addım atmağa sövq edir. Bu gün azadlığa çıxan torpaqlarımızdan heç zaman ayrı düşməməyimizlə bağlı təəssüratlarımızda müəyyən bir həqiqət payı da var. Biz doğma yurdlardan didərgin düşəndə o torpaqları da içimizdə, xatirələrimizdə özümüzlə götürüb gəlmişik. Onlar hər anımızda yaşayıblar. Bizimlə birgə olublar. Unutmamışıq və unudulmağa da qoymamışıq. Hətta ən ümidsiz vaxtlarımızda belə bunun məhz belə olacağına - doğma torpaqlara qayıdacağımıza bütün varlığımızla inanmışıq.

Və o gün gəldi...

Əvvəlcə bir sıra cəbhəətrafı kəndlərimiz, ardınca Suqovuşan qəsəbəsi, sonra Cəbrayıl, Hadrut, Füzuli, Zəngilan, Qubadlı rayonları ordumuzun gücü ilə işğaldan azad edildi. 2020-ci ilin noyabr ayı isə yeni qələbələrlə ən böyük, əlamətdar günlər qazandı. Noyabrın 8-də xalqımızın mədəniyyət məbədi, musiqi beşiyi Şuşa 28 illik işğaldan sonra ordumuzun şücaəti sayəsində azadlığa çıxdı. Bu, dünyanın hərb tarixində əbəqi qalacaq və igidlik, mərdlik, Vətənə sevgi nümunəsi kimi daim xatırlanacaq bir qələbədir.

Artıq ümidlər, xəyallar gerçəkliyə çevrilib.

Müzəffər ordumuzun Vətən müharibəsində qazandığı tarixi qələbə ölkəmizin iqtisadi qüdrəti ilə davam edir. İşğalçılardan təmizlənmiş doğma yurdlarımızın dirçəlişi üçün tikinti-quruculuq tədbirləri sürətlə həyata keçirilir. Qalib ordumuzun Ali Baş Komandanı, Azərbaycan Prezidenti İlham Əliyev 44 günlük Vətən müharibəsi zamanı aparılan hərbi əməliyyatları əsl Sərkərdə məharəti ilə idarə edərək xalqımızı Zəfərə qovuşdurduğu kimi, Qələbədən sonra başlanmış quruculuq işlərinin də hər anını diqqətdə saxlayır. Ölkə rəhbəri mütəmadi şəkildə azad yurdlarımıza səfərlər edərək işlərin gedişi ilə maraqlanır. Prezidentin hər gəlişi, təməlini qoyduğu hər tikili bu torpaqlara yeni bir həyat gətirir. İnsanlarımıza bir aləm ümid, sevinc və qürur bəxş edir.

## Zəngilana dördüncü səfər

Dövlət rəhbərimizin bu günlərdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ilə birgə Zəngilan rayonuna səfəri, rayon ictimaiyyətinin nümayəndələri ilə keçirdikləri görüş də tarixi məqamları ilə yadda qaldı. Bu, işğaldan azad ediləndən sonra Prezident İlham Əliyevin Zəngilana dördüncü səfəridir. Səfərin rəmzi mənası həm də onun bir il əvvəl bu gözəl, səfalı məkanın azad edildiyi günə, 20 oktyabr tarixinə təsadüf etməsi idi.

Səfər zamanı Azərbaycan Prezidenti rayonun Ağalı kəndində həyata keçirilən "ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə, Zəngilan Beynəlxalq Hava Limanının tikintisi ilə, Dövlət Sərhəd Xidmətinin Zəngilan rayonunda yerləşən hərbi hissə kompleksində yaradılan şəraitlə tanış oldu. Əvvəlki səfərləri kimi bu gəlişində də Ali Baş Komandanın Zəngilana yeni ərməğanları ilə yadda qaldı. Azərbaycan Prezidenti Zəngilan Rəqəmsal Yarımstansiyasının təməlini qoydu. 110/35/10 kV-luq "Zəngilan" yarımstansiyasının isə açılışında iştirak etdi.

Təməli qoyulan, tikintisi aparılan, eləcə də açılışı edilən infrastruktur obyektlərinin ümumi xarakteri ilə yaxından tanışlıq Azərbaycan dövlətinin azad Qarabağda və Şərqi Zəngəzurda tikinti-quruculuq işlərinin hansı prinsiplər əsasında aparıldığını göstərir. Bu, sadəcə sıradan bir quruculuq prosesi deyil. Prezident İlham Əliyev bu torpaqlarda XXI əsrin şəhər və kəndlərini qurur. İllər əvvəl yalnız xəyal edə biləcəyimiz inkişaf mənzərəsini qurucu əlləri ilə yurdlarımızın füsunkar köksünə köçürür. Xəyalları reallaşdırır. Bölgənin işğal altında qalıb son daşına, kərpicinə, ağacına qədər yağmalandığı təxminən 30 il ərzində itirilmiş illərini qaytarır. Bu yerlərin yeni həyatı 1993-cü ildə qaldığı yerdən yox, XXI əsrin indiki günlərindən, Azərbaycanın hazırkı qüdrətli dönəmindən başlanır. Şəhər və kəndlərimiz yeni minilliyin innovativ texnologiyaları əsasında abadlaşır və qurulur.

Bir neçə il keçəcək, bütün dünya Azərbaycanın qısa zamanda bu torpaqlarda yaratdığı möcüzəyə heyran olacaq. Qarabağ və Şərqi Zəngəzur dünyanın bütün ölkələrindən olan qonaqların, bu gözəlliyin, inkişafın, möcüzənin sorağını eşidib gələn insanların ən sevimli məkanına çevriləcək.

## İlk "ağıllı kənd"

Zəngilan rayonunun Ağalı kəndində həyata keçirilən "ağıllı kənd" layihəsi buna doğru uğurlu bir başlanğıcdır. Prezident İlham Əliyev ölkəmizdəki ilk "ağıllı kənd" layihəsinin təməlini 2021-ci ilin aprelində qoyub. Hazırda layihənin əhatə etdiyi 110 hektardan çox ərazidə tikinti işləri aparılmaqdadır. İşlərin gedişi ilə yerində tanışlıq zamanı dövlət rəhbərimizə verilən məlumatdan belə aydın oldu ki, burada innovativ tikinti materiallarından istifadə olunmaqla tam izolyasiya edilmiş 200 fərdi ekoloji ev, ikimərtəbəli 4 qeyri-yaşayış binası, 360 şagird yerlik məktəb və 60 yerlik uşaq bağçası olacaq. Kənddə yaradılacaq "ağıllı məktəb"də distant təhsilin aparılması üçün bütün imkanlar təmin ediləcək. Kənddə sakinlərin ən yüksək səviyyədə yaşayışı üçün hər cür şərait yaradılacaq.

Burada kənd təsərrüfatının təşkili və inkişafı ilə bağlı da müvafiq işlər görüləcək. "Ağıllı kənd təsərrüfatı"nda müasir suvarma sistemlərindən istifadə olunacaq. Əkin planına əsasən, müəyyənləşdirilmiş 600 hektar ərazidən 412 hektarının minalardan təmizlənməsi üçün müvafiq işlər artıq başa çatıb. "Ağıllı kənd"də kənd təsərrüfatı fəaliyyətinin bərpası və inkişafı üçün şəraitin yaradılması məqsədilə layihə çərçivəsində ictimai fermanın qurulması da nəzərdə tutulur. Fermada 250 baş iribuynuzlu və 600 baş xırdabuynuzlu mal-qaranın saxlanması mümkün olacaq. Burada "ağıllı idarəetmə sistemi" data və təhlil mərkəzindən həyata keçiriləcək.

Bəzi binalar da hazır vəziyyətdədir. Bu ilin sonu, gələn ilin əvvəlinə kənd sakinlərinin bura köçürülməsinə başlanacaq.

## İnkişaf əzmi





Azərbaycanın qüdrətli əllərinin azad Zəngilanda qurduğu mühüm strateji obyektlərdən biri də Zəngilan Beynəlxalq Hava Limanıdır. Prezident İlham Əliyev səfəri zamanı burada da tikinti işlərinin gedişi ilə tanış oldu. Mayda başlanan işin 2022-ci ildə tamamlanması planlaşdırılır. Hava limanı bütün növ təyyarələri, o cümlədən ağır yük təyyarələrini qəbul etmək imkanına malik olacaq. Zəngilan coğrafi baxımdan mühüm beynəlxalq nəqliyyat-logistika məkanında yerləşdiyindən burada yaradılan hava limanının önəmi çox böyükdür. Bu ərazidə indiyə qədər heç zaman hava limanı olmayıb. Bu gün isə beynəlxalq hava limanının inşası Azərbaycanın iqtisadi qüdrətinin, inkişaf əzminin göstəricisidir.

Rayona səfəri zamanı Prezident İlham Əliyev Dövlət Sərhəd Xidmətinin Zəngilan rayonunda yerləşən hərbi hissə kompleksində yaradılmış şəraitlə də tanış oldu. Qısa müddətdə belə bir kompleksin qurulması Ali Baş Komandanın tapşırığına əsasən, işğaldan azad olunmuş ərazilərdə zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması üzrə aparılan fəaliyyətin tərkib hissəsidir. Azərbaycan işğalçılardan azad edilmiş torpaqlarımızda hərbi gücünü daha da möhkəmləndirir, əsgər və zabitlərimiz Vətənin sərhədlərinin keşiyində ayıq-sayıq dayanır.

Prezident İlham Əliyevin səfər zamanı açılışını etdiyi 110/35/10 kV-luq "Zəngilan" yarımstansiyası, həmçinin təməlini qoyduğu Rəqəmsal Yarımstansiya bu regionun gələcəyinə işıq salacaq. İnkişaf proseslərinin enerji mənbəyinə çevriləcək.

## İstədiyimizə nail oluruq

Azərbaycan geniş imkanlar ölkəsidir. Hazırda cəmiyyət həyatının müxtəlif sahələrində köklü islahatlar uğurla davam etdirilir. Yeni dövrə transformasiya prosesi sürətlə həyata keçirilir. Ölkəmiz yenilənir. Bu yenilik ruhu hər yerdə, hər an bütün bölgələrdə özünü hiss etdirir və insanlarımızın arzuları ilə üst-üstə düşür. Bu işlərlə Azərbaycan özünü növbəti inkişaf mərhələlərinə hazırlayır. Zamanla birgə özü də dəyişib güclənir.

Prezident İlham Əliyev Zəngilan rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə regiondakı reallıqlar, ölkənin müasir iqtisadi-siyasi mənzərəsini müəyyənləşdirən qlobal layihələr, bu bölgədə görülən işlər barədə fikir mübadiləsi apardı. Xüsusi qeyd olundu ki, bu layihələr regiona sülh, davamlı inkişaf, insanlara rifah gətirir. Onlardan böyük bir coğrafiyada yaşayan insanlar faydalanır.

Dövlət başçısı Zəngilanın hazırlanmaqda olan baş planının xoş xəbərini də çatdırdı. Qeyd etdi ki, ərazinin təbii gözəllikləri nəzərə alınaraq burada çox müasir bir şəhər qurulacaq. Həmçinin rayonun kəndləri də yenidən tikiləcək.

Prezident İlham Əliyev Zəngilanın ölkəmizin nəqliyyat-logistika mərkəzinə çevriləcəyini bəyan etdi: "Çünki Zəngəzur dəhlizi buradan keçir, dəmir yolu, Horadiz-Ağbənd avtomobil yolu tikilir. Zəngəzur dəhlizinin açılması ilə bağlı son hadisələr onu göstərir ki, istədiyimizə nail oluruq. Birinci mərhələdə Ermənistan tərəfi müqavimət göstərsə də, indi özləri artıq buna razılaşıblar. Burada, əlbəttə ki, yumşaq desək, bizim rolumuz az deyil. Ona görə artıq avtomobil yolunun açılışı məsələsi həll olunur, dəmir yolu məsələsi həll olunur".

## Ermənilər Oxçuçayı təbii fəlakət zonasına çeviriblər

Azərbaycan Prezidenti Zəngilanda müasir logistika-nəqliyyat mərkəzinin yaradılması üçün bütün infrastrukturun qurulacağını, paralel olaraq təbiətin mühafizəsi, çayların qorunması ilə bağlı tədbirlərin görüləcəyini qeyd etdi. Dövlətimizin rəhbəri görüşdə diqqətə çatdırdı ki, ermənilər Oxçuçayı təbii fəlakət zonasına çeviriblər. Çaydan götürülən analizlər burada zəhərli maddələrin həcminin normadan dəfələrlə artıq olduğunu göstərir. Azərbaycan dövləti bu çayları təmizləyəcək, burada dağ-mədən sənayesi inkişaf etdiriləcək. "Vejnəli qızıl yatağını ermənilər xarici şirkətlərlə birlikdə qanunsuz olaraq istismar edirdilər. O xarici şirkətlərin məhkəməyə verilməsi prosesinə start verdik, yaxın gələcəkdə eşidəcəksiniz. Onların bu işdən boyun qaçırmaq cəhdləri demək olar ki, imkansızdır. Çünki hər şey göz qabağındadır. Başqa ölkənin ərazisində qanunsuz işlər görüb, buradan qızılı qanunsuz olaraq daşıyıb və dünya bazarlarında satıb. Biz onlarla əlbir olanları da məsuliyyətə cəlb edəcəyik. Beynəlxalq hüquqşünasları da cəlb etdik",- deyə Azərbaycan Prezidenti bildirdi.

## "Onlar öz həyatlarını Vətənə bəxş etdilər"

Zəngilanın ictimaiyyət nümayəndələri ilə görüşün ən duyğu dolu anlarından biri də Ali Baş Komandanın Vətən Müharibəsi Qəhrəmanı, tabor komandiri kapitan, şəhid Surxay Noçuyevin atası ilə görüşü idi. Prezident şəhid atasını bağrına basdı, bu torpaqları canı-qanı bahasına azad edən şəhidlərimizin ruhuna ehtiramını ifadə etdi: "Onların ruhu bu gün şaddır. Onlar az yaşayıblar, dünyadan gənc gediblər, şəhid olaraq gediblər. Amma onlar hər zaman ürəyimizdə yaşayacaqlar. Sizin simanızda onların valideynlərinə mən Prezident, Ali Baş Komandan kimi öz təşəkkürümü bildirmək istəyirəm. Çünki doğrudan da bizim şəhidlərimiz şüurlu şəkildə ölümə gedirdilər. Hamımız yaxşı bilirik ki, ağır döyüşlərdə o istehkamları yarmaq, oradan keçmək, dağlara qalxmaq, dağlara dırmaşmaq, xüsusilə Şuşa əməliyyatı tarixdə bəlkə də misli görünməmiş qəhrəmanlıq nümunəsidir. Bunu ancaq milli ruhda böyüyən insanlar edə bilərdilər. Sizin kimi valideynlər onları milli ruhda böyüdüb Vətənə bəxş etdiniz. Onlar da öz həyatlarını Vətənə bəxş etdilər".

Dövlət rəhbərimiz vurğuladı ki, 44 günlük Vətən müharibəsindəki qələbəmiz işğal dövründə əyilməyən, vəziyyətlə barışmayan, öz doğma torpaqlarını unutmayan Azərbaycan xalqının qələbəsidir. Prezident İlham Əliyev burada gəncliyin gücünü, əzmkarlığını, vətənpərvərliyini, döyüş ruhunu xüsusilə qeyd etdi. Azərbaycan gəncliyi bu dövlətdə, bu Vətəndə öz gələcəyini görə bilir. Bunun üçün də doğma yurdun inkişafına töhfə verməyə, Vətən naminə misilsiz fədakarlıqlar göstərməyə hər zaman hazırdır.

Onlar gözlərini açıb Azərbaycanı güclü, öz milli məqsədlərinə doğru addım-addım irəliləyən görüblər. Ölkəmizin nailiyyətlərini gündəlik həyat tərzi kimi yaşayıblar. Dövlətimizin varlığını, gücünü, dəstəyini, diqqət və qayğısını hər zaman hiss ediblər. Vətən, dövlət bu gənclik üçün sadəcə söz deyil, qeyri-müəyyən təsəvvür deyil. Bu, sarsılmaz inamdır, arzulara çatmaq üçün mənəvi və maddi güc mənbəyidir. Daim vətəndaşlarının yanındadır, onların rifahı, xoşbəxtliyi üçün çalışandır. Qürur mənbəyidir, Vətən evinin abadlığıdır, dünyaya qovuşmaqdır, qlobal inkişaf proseslərinin güclü bir hissəsi olmaqdır.

İşğal altındakı torpaqlarımız da məhz bu gəncliyin əzmkarlığı, vətənpərvərliyi, döyüş ruhu sayəsində azadlığa çıxdı. Vətən müharibəsindəki zəfərimizdə bütün nəsillərin böyük əməyi, zəhməti var. Bu, danılmaz faktdır. Amma bu qalibiyyəti qazananlar cərgəsində Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə yetişən, formalaşan gəncliyin xüsusi rolu oldu. Dövlət rəhbərimiz öz çıxışlarında, müsahibələrində, xalqa müraciətlərində dəfələrlə bunu qeyd etmişdir və bir daha xüsusi vurğuladı: "Hətta bu torpaqları görməyən gənclər də bu torpaqların azad edilməsi eşqi ilə yaşamışlar və ölümə gedən də məhz onlar oldu. Birinci sırada gedən məhz o uşaqlar idi ki, işğaldan sonra dünyaya gəliblər və bəlkə də işğal dövründə onların 5-10 yaşı var idi. Yəni bu, onu göstərir ki, xalqımız müqəddəs Zəfər gününü gözləyirdi, bütün çətinliklərə, əzab-əziyyətlərə baxmayaraq, bu günü gözləyirdi və inanırdı ki, bu gün gələcək və biz də, sadəcə olaraq, bütün xalqımızı səfərbər etmək, gəncləri vətənpərvərlik ruhunda tərbiyə etmək üçün səylər göstərdik. Əlbəttə ki, ordumuzu gücləndirdik, iqtisadiyyatı gücləndirdik, beynəlxalq mövqelərimizi genişləndirdik və istədiyimizə nail olduq, tarixi ədalətə nail olduq. Bu gün sizinlə bərabər buradayıq".

Prezident daha sonra Zəngilanın ölkə üzrə çox müasir və böyük əhəmiyyətə malik bölgəyə çevriləcəyini bildirdi. Bu prosesin həmin məkanın sakinləri ilə birgə həyata keçiriləcəyini dedi və şəhərin baş planı hazır olandan sonra onları da öz fikirlərini bildirməyə çağırdı. Bütün dünya azərbaycanlılarına tezliklə Zəngilandan Naxçıvana, oradan Türkiyəyə, oradan da Avropaya açılacaq yolların xoş müjdəsini yetirdi.

Şərqi Zəngəzurdan dünyaya uzanan yol Prezident İlham Əliyevin tarixinin ən qüdrətli inkişaf mərhələsinə çatdırdığı Azərbaycanın indikindən də güclü, xoşbəxt gələcəyinə doğru gedən yol olacağına hamı əmindir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

### Vətənə oğul gərək!

# "Mən özümün və şəhid dostlarımın qisasını almışam"

"...Ailənin sonbeşiyi idi Azər Əli oğlu İsayev. Əlamətdar bir gündə - 1972-ci il yanvar ayının 1-də Gədəbəy rayonunun axarlı-baxarlı bir guşəsində, Alnabat (Əli-İsmayıl) kəndində dünyaya göz açmışdı. Yaşıdları arasında uca boyu və idmançı cüssəsi ilə seçilirdi. Həyatını futbolsuz təsəvvür etmirdi. Rəssamlıq istedadı var idi. Ara-sıra klassik üslubda şeirlər də yazırdı...



Söhbət Birinci Qarabağ savaşı başlayanda Qazaxıstanın Karaqanda vilayətinin Temirtau şəhərində tankçı kimi həqiqi hərbi xidmət keçən Azər İsayevdən gedir.

SSRİ-nin süqutu ərəfəsində hərbi xidmətini davam etdirmək üçün vətənə dönür. Şair-publisist Sahib Camal illər öncə qələmə aldığı xatirə yazısında Azərin qısa, lakin şərəfli ömür və döyüş yolundan bəhs edib: "...Azər həqiqi hərbi xidmət müddəti qurtarandan sonra da evdə qərar tuta bilmədi. Milli Ordunun Gədəbəyin Başkənd yaşayış məntəqəsini azad etməsindən dərhal sonra rayon hərbi komissarlığına müraciət edərək Qarabağa yollananda "Əsl müharibə orada gedir, bütün bu oyunlar Qarabağın başındadır, onu xilas etməliyik", - demişdi.

Anası iki il ərzində odun-alovun içindən çıxan Azəri heç olmasa bircə ay yanında saxlamaq istəyirdi. Mümkün olmurdu. Müharibənin nə olduğunu yaxşı bilən Azər anasına təskinlik vermədən həqiqəti söylədi: "Ana, indi Vətənə vuruşan oğullar gərəkdir. Mən evdə otura bilmərəm. Hesab elə ki, məni bu Vətənə qurban demisən".

Bəlkə elə onu qarşıda gözləyən şəhidlik taleyini fəhmlə duyduğundan bu sözləri söyləmişdi və anasını da bu dərdi çəkməyə hazırlayırdı? Milli Ordunun "Başkənd əməlliyyatı"ndan dərhal sonra Azər İsayev hərbi komissarlığa müraciət edərək Qarabağa yollanıb. Bundan sonra o, Lənkəran batalyonunun tərkibində Qarabağ cəbhəsində döyüşlərə qatılıb. 1992-ci ilin avqust ayında Sərsəng su anbarı ətrafındakı Drombon, Artunaqomer, Mehmanə, Sırxavənd, Çıldıran kəndləri uğrunda aparılan ağır döyüşlərdə iştirak edib: "...Artıq Azərgil Xankəndi yolunda sonuncu strateji əhəmiyyətli Vəngli kəndinə çıxmışdılar. Mahir nişançı olduğuna və texnikadan başı yaxşı çıxdığına görə yoldaşları arasında xüsusilə fərqlənirdi. O, həmin kəndlərin azad olunmasında qəhrəmanlıq nümunələri göstərdi...

Ancaq o zaman cəbhədəki intizamsızlıq, başıpozuqluq Azəri də ciddi narahat edirdi. Çox çətinliklərlə alınan mövqelərin əldən verilməsinin və itkilərimizin də böyük hissəsinin adi intizamsızlıqdan, yaxud təcrübəsizlikdən baş verdiyini yaxşı görür və çıxış yolu tapmağa çalışırdı. Buna görə də yaxın silahdaşları ilə birlikdə "Qızılbaşlar" dəstəsində birləşmişdilər. And içmişdilər ki, düşmənə arxa çevirməyəcək, silahdaşlarını döyüş meydanında qoyub qaçmayacaqlar. Tezliklə bu dəstənin qəhrəmanlıqları barədə xəbərlər bütün bölgəyə yayıldı. Çıldıran ətrafındakı qanlı döyüşlər isə yenidən bərpa olundu. "Qızılbaşlar" böyük iradə və inamla döyüşür, düşmənə ciddi zərbələr vururdular..."

O günləri xatırlayan qardaşı İlqar İsayev deyir ki, 1992-ci il sentyabrın 2-də Azər dörd yoldaşı ilə kəşfiyyata çıxıb: "Yoldaşlarından biri müşahidə aparmaq üçün yaxınlıqdakı aşırıma gedibmiş. Müəyyən edilmiş vaxt keçsə də, o, hələ geri qayıtmadığından axtarışlar müsbət nəticə verməyib. Kəşfiyyat vaxtı qurtardığına görə yoldaşları geri qayıtmağı təkid etsələr də, Azər razılaşmayıb. Deyib ki, biz and içmişik, yoldaşlarımızı axtarıb tapmalıyıq. Qəfildən iki tərəfdən güclü atəşə tutulublar. Mühasirədə olan üç qeyrətli oğul 50-yə yaxın erməni quldur ilə qeyri-bərabər döyüşdə bir neçə saat öz mövqelərini qoruyub, həm də xeyli sayda düşmən qüvvəsini məhv etmişdilər. Ancaq bu, Azər üçün sonuncu döyüş oldu. Döyüş yoldaşları ağır yaralanan Azəri mühasirəni yararaq atəş altından çıxarmışdılar. Ağır güllə və qəlpə yaraları alan Azər hospitalda bütün ağrılara dözür, doğma və yaxınlarının çəkdiyi sıxıntını hiss edir, onlara ürək-dirək verirdi: "Fikir eləməyin, mən özümün və dostlarımın qisasını, ən azı, onqat almışam..."

O, heç düşünmədi ki, öz vəziyyəti ağırdır. Elə hey döyüş yoldaşlarını xatırlayır, "onlardan yaman nigaranam", - deyirdi. Həkimlər onun həyatı uğrunda mübarizə aparsalar da, bu qəhrəman oğulu xilas etmək mümkün olmadı.

Bu da ömrü və döyüş yolu qısa olan şəhid Azər İsayevin "həyat hekayəsi..."

1992-ci il oktyabrın 6-da Azər doğmaları ilə son dəfə vidalaşaraq əbədiyyətə qovuşdu. Oktyabrın 8-də Gədəbəyin Şəhidlər xiyabanında böyük izdahamla ana qədər sevdiyi və uğrunda candan keçdiyi torpağa tapşırıldı.

Deyirlər ki, Azərin vətənpərvərliyi, döyüşkənliyi, mərdliyi, igidliyi, Vətənə sevgisi, qorxmazlığı, həm də qeyri-adi istedadı ilə bağlı söz demək istəyənlərin gözlərində yaş donmuşdu o gün. O payız Gədəbəyin dağlarına özgə bir ruzigar əsmişdi - ümidlər, gümanlar kəsilmişdi. Düşmən öz havadarları ilə bizə güc gəlmişdi. Ona görə də Azər İsayev kimi igidlərin narahat ruhları dolaşan Vətən göylərini qara buludlar zülmətə döndərmişdi. Lakin Gədəbəyin Başkəndinin düşməndən azad edilməsi tarixi qələbə idi. Bu gün isə Azər İsayev kimi ölməz şəhidlərimizin ruhları şaddır, axı uğrunda canlarından, qanlarından keçdikləri, 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin hərbi-diplomatik siyasəti və "dəmir yumruq"la qazandığımız şanlı Qələbədən sonra ziyarət etdiyimiz hər addım torpaqda eşidilir - "Qarabağ bizimdir", "Qarabağ Azərbaycandır!"...

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Nizami Gəncəvi Azərbaycan xalqının mənəviyyat pasportudur

## Şamaxı Astrofizika Rəsədxanasında dahi şairin yaradıcılığına həsr olunmuş konfrans keçirilib

AMEA-nın Humanitar Elmlər Bölməsi və Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsinin birgə təşkilatçılığı ilə AMEA-nın Şamaxı Astrofizika Rəsədxanasında "Nizami Gəncəvi yaradıcılığında riyazi-astronomik baxış" mövzusunda VIII "Fizika-lirika" konfransı keçirilib.



Konfrans iştirakçıları əvvəlcə Şamaxı Astrofizika Rəsədxanasının şəhərciyində görkəmli elm xadimi, Milli Elmlər Akademiyasının qurucularından biri, akademik Yusif Məmmədəliyevin büstünü ziyarət ediblər.

Tədbiri giriş sözü ilə AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli açaraq, 2021-ci ilin ölkəmizdə "Nizami Gəncəvi ili" elan edilməsinin əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü sayəsində ölkəmizdə Nizaminin əsərlərinin latın qrafikası ilə nəşri həyata keçirilib, anadan olmasının 840 illik yubileyi geniş miqyasda qeyd edilib. Onun layiqli davamçısı, Prezident İlham Əliyevin sərəncamı ilə 2011-ci ildə Nizami Gəncəvinin 870 illiyi təntənəli şəkildə keçirilib. Ölkə Prezidentinin 05 yanvar 2021-ci il tarixli sərəncamı ilə 2021-ci ilin ölkəmizdə "Nizami Gəncəvi ili" elan edilməsi isə Azərbaycan ədəbiyyatşünaslıq elminin inkişafında yeni bir mərhələnin əsasını qoyaraq, dahi ədibin yaradıcılığının azərbaycançılıq işığında tədqiqi, təbliği və nəşri ilə bağlı qarşıya mühüm öhdəliklər qoyub.

Nizami Gəncəvini Şərq intibahçılarından biri adlandıran İsa Həbibbəyli, onun əsərlərinin dünya dillərinə tərcüməsinin zəruriliyini vurğulayıb. Böyük Britaniyanın Oksford Universitetində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətə başlamasını isə ölkəmizin alimləri ilə yanaşı, tanınmış dünya şərqşünaslarının da araşdırma və təbliğat proseslərinə cəlb edilməsinə şərait yaratdığını qeyd edib.

O, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Nizamişünaslıq" şöbəsinin müdiri, AMEA-nın müxbir üzvü Nüşabə Araslının rus dilində yeni nəşr olunmuş "Nizami və türk ədəbiyyatı" monoqrafiyası haqqında məlumat verib.

Akademik İsa Həbibbəyli 2021-ci il oktyabr ayının 1-də Nizami Gəncəvi adına Ədəbiyyat, eləcə də Molekulyar Biologiya və Biotexnologiyalar institutlarının birgə təşkilatçılığı ilə "Nizami Gəncəvi irsi və təbiət" mövzusunda VII "Fizika-lirika" konfransının keçirildiyini, "Nizami Gəncəvi yaradıcılığında riyazi-astronomik baxış" mövzusundakı VIII "Fizika və lirika" konfransının əhəmiyyətini vurğulayıb. Alim, "Fizika və lirika" adının şərti xarakter daşıdığını, fizika adı altında dəqiq və təbiət elmlərinin, lirika dedikdə isə ədəbiyyat və mədəniyyətin bütün sahələrinin əhatə olunduğunu deyib.

AMEA-nın vitse-prezidenti, İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru, akademik Rasim Əliquliyev "Nizami Gəncəvi ili" ilə bağlı AMEA-da geniş tədbirlər planının icrası barədə məlumat verərək deyib: "Nizami Gəncəvi Azərbaycan xalqının mənəviyyat pasportudur. Dünyaya onunla təqdim edilirik".

AMEA-nın akademik katibi, Fizika İnstitutunun baş direktoru, akademik Arif Həşimov çıxış edərək, Nizami Gəncəvinin öz yaradıcılığında bütün elmləri üzvi şəkildə birləşdirdiyini bildirib. Şamaxı Astrofizika Rəsədxanasının baş direktoru, AMEA-nın müxbir üzvü Namiq Cəlilov son illərdə AMEA-nın elmi müəssisələri ilə Şamaxı Astrofizika Rəsədxanası arasında elmi əməkdaşlığın gücləndiyini və həmin silsilədən olan bu tədbirin əhəmiyyətini yüksək qiymətləndirib.

"Nizami Gəncəvi alim-şairdir. Bəşər sivilizasiyası tarixindəki nadir şəxsiyyətdir. Bədii-estetik və fəlsəfi görüşlərinə görə bütün zamanların şairidir", - deyən AMEA-nın müxbir üzvü Namiq Cəlilov dahi şairin könüllərdə daim yaşayacağını ifadə edib.

Konfrans işini məruzələrlə davam etdirib. Tədbirdə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmlər doktoru, professor İmamverdi Həmidov, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru, professor Tahirə Məmməd, AMEA Şamaxı Astrofizika Rəsədxanasının şöbə müdiri, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Ədalət Ətayi məruzələrlə çıxış ediblər.

Tədbirin sonunda akademik İsa Həbibbəyli 2021-ci ildə Nizami Gəncəviyə həsr olunmuş akademik nəşrləri Şamaxı Astrofizika Rəsədxanasının kitabxanasına hədiyyə edib.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

Demək bizdən...

# Noyabrın 15-dək mənzil və müəssisələri nə ilə isidək?

## Yaxud özü mövcud olmayan sovet dövlətinin "ölü" qanunu nə vaxtadək qüvvədə olacaq?

*Əvvəli 1-ci səh.*

Dəyişməyən bircə bizim "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyətinin iş prinsipidir.

Həmin cəmiyyət əski sovet dönəmindən qalma, yaşı 100 ilə yaxın olan bir qərar əsasında fəaliyyət göstərir. Yəni dünyada baş verən iqlim dəyişikliyinin yaratdığı yeni şərait həmin qurumu, necə deyərlər, qətiyyən maraqlandırmır. Məlum olduğu kimi, sovetlər dönəmində qış mövsümü noyabrın 15-dən başlanırdı. Bu o demək deyildi ki, həmin dövrdə Kamçatkada, Çukotkada, Murmanskda, Arxangelskdə və digər yerlərdə oturub noyabrın 15-nin gəlməsini gözləyirdilər. Saxalin adasında hərbi xidmətdə olduğum üçün bilirəm ki, bu, belə deyildi. Şimali Saxalində sentyabr ayının axırlarında yağan qarın hündürlüyü bir metrə çatırdı. Bu üzdən adada noyabrın 15-ni gözləmirdilər, soyuqlar düşən kimi istilik verilirdi. Yəni SSRİ-nin özündə həmin dövrdə hər yerdə standart şəkildə noyabrın 15-i tarixi qışın gəlməsi kimi qəbul edilmirdi. Ancaq bizdə hələ də bu günü "əldə bayraq edib" təhsil və səhiyyə müəssisələrinə, həmçinin mənzillərə istiliyin verilməsini noyabrın 15-nə saxlayırlar.



Yardımlıda, Qubadlıda, Lerikdə, Qusarda, Qubada, Kəlbəcərdə və digər dağ rayonlarında hava şəraiti aran bölgələri ilə eynidirmi? Artıq bir aydır dağlıq rayonlarda da məktəblilər dərsə gedirlər. Onların vəziyyətinin necə olmasını təsəvvür etmək çətin deyil. Paytaxt və bölgələrdə məktəb yaşlı uşaqların soyuqdəymədən kütləvi şəkildə xəstələnməsi də bununla bağlı deyilmi?

Bu vaxtadək dağlıq rayonlardakı təhsil və səhiyyə müəssisələrinə istiliyin verilməsi vacib idi. İndi isə ölkəmizin hər yerində, o cümlədən Bakıda da istiliyin verilməsinə ehtiyac var. Paytaxtdakı təhsil və səhiyyə müəssisələri ilə yanaşı, mənzillərdə də istilik olmalıdır. Ona görə ki, səhər və axşam havalar soyuq keçir. Təsəvvür edin ki, hər evdə uşaq, qoca var, xəstə də ola bilər. Sözsüz ki, istiliyin verilməməsi bu kateqoriyadan olan insanların səhhətinə mənfi təsir göstərir.

Kütləvi informasiya vasitələrində istiliyin noyabrın 15-də verilməsi geniş müzakirə olunur. İctimai rəy də istiliyin bu tarixdən tez verilməsinin tərəfindədir. Lakin bugünədək həmin məsələ ilə bağlı "Azəristiliktəchizat" tərəfindən ciddi reaksiya yoxdur. KİV nümayəndələrinin sorğularına səthi cavab verilir. Belə olan halda sual yaranır. Bu qaydaların qüvvədə qalmasında kimlər maraqlıdır? Hətta sovetlər dönəmində qəbul edilən bu qaydalar indikindən fərqli olaraq humanist xarakter daşıyırdı, yəni yerinə və iqlim şəraitinə uyğun dəyişirdi. Bizdə isə qaydalar standartdır, dağla aran bir tutulur. İkincisi, bu qaydalar mövcud olanda dünyada qlobal iqlim dəyişikliyi baş verməmişdi. Üçüncüsü və ən əsası isə budur ki, nə vaxtadək ölü bir dövlətin köhnə qanunundan istifadə olunacaq?

Dünya qış gəlmədən enerji böhranını yaşadı. Avropa qitəsində həyəcan təbili çalındı. Avropa Birliyi ölkələri toplanaraq qışda yaşana biləcək problemləri həll etmək üçün tədbirlər görürlər. Bəs "Azəristiliktəchizat"ın nə fikirdə olduğunu öyrənmək üçün oraya dəfələrlə zəng vurduq. Faksa qoşulmuş əlaqə telefonlarından təbii ki, heç bir cavab almadıq. "Azəristiliktəchizat"ın saytına daxil olduqda da qışa hazırlıqla bağlı görülən işlər barədə məlumat əldə edə bilmədik. Belə vəziyyət təkcə "Azəristiliktəchizat"damı müşahidə edilir? Digər xidmət göstərəcək qurumlarda da eyni mənzərə ilə rastlaşdıq. Əvvəllər əhaliyə xidmət göstərən bütün təşkilatlar yay aylarından qış mövsümünə hazırlaşdıqları barədə mətbuata vaxtaşırı informasiyalar ötürürdü. Amma nədənsə qışda biz bunun əksini görürdük. Qar yağıb şaxtalar düşən kimi işıqlar sönür, qaz təchizatı azalır və ya tamamilə kəsilir, istilik verilişi dayandırılırdı. Mətbuat paytaxtın müxtəlif yerlərində baş verən bu nöqsanları işıqlandırdıqda cavabları standart olurdu: "Qəza baş verib". Bəs qışa hazırlıq qəzaların baş verilməməsi üçün deyilmi? Qəza baş verirsə, deməli, həmin qurumlar qışa hazır deyil...

Dövlət sosial infrastrukturun inkişaf etdirilməsi və əhaliyə yaxşı xidmət göstərilməsi üçün büdcədən milyonlarla manat vəsait ayırıb. İstədiyi təkcə bu qurumların əhaliyə yaxşı xidmət göstərməsidir. Xidməti qurumların rentabelliyini təmin etmək üçün vaxtaşırı qiymət artımına da rəvac verilir. Bir sözlə, həmin qurumlara dövlət tərəfindən verilən dəstəyin nəticəsini vətəndaş öz həyatında görmür. Belə hal nə vaxtadək davam edəcək? Sualı biz veririk, cavabı isə aidiyyəti qurumlar versin...

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# 2030-cu ildə Azərbaycanda enerji istehsalının 30 faizi bərpa olunan enerji payına düşəcək

## Qarabağ və Şərqi Zəngəzur isə yaxın zamanda "yaşıl enerji" zonasına çevriləcək

*Əvvəli 1-ci səh.*

Odur ki, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də də bu növ enerjidən istifadənin genişləndirilməsinin qarşıya qoyulması təsadüfi deyil.

Prezident İlham Əliyevin bu il aprelin 2-də imzaladığı "Qoyuluş gücü 230 MVt olan günəş elektrik stansiyasının tikintisi ilə bağlı pilot layihənin həyata keçirilməsi tədbirləri haqqında" sərəncamı Azərbaycanı "yaşıl enerji" məkanına çevirmək istiqamətində atılan əhəmiyyətli addımdır. Xatırladaq ki, yaxın gələcəkdə ölkəmizdə Səudiyyə Ərəbistanı Krallığının "ACWA POWER" şirkəti ilə külək və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə günəş elektrik stansiyası tikiləcək. Beləliklə, növbəti onillikdə quraşdırılması nəzərdə tutulan 1500 MVt-lıq yeni istehsal güclərinin 470 meqavatı bu iki şirkətlə reallaşdırılan layihələrdən alınacaq.

Daha bir layihə üzrə işlər davam edir. Böyükşor gölündə "Üzən günəş panelləri sisteminin inkişafına dair biliklərin mübadiləsi və texniki yardım dəstəyi" pilot layihəsi çərçivəsində 100 kVt gücündə üzən günəş elektrik stansiyası tikilir. Layihə Asiya İnkişaf Bankının dəstəyi ilə həyata keçirilir. Stansiyanın gələn il istifadəyə verilməsi gözlənilir.

İşğaldan azad olunmuş ərazilərimizin "yaşıl enerji" zonasına çevrilməsi üçün genişmiqyaslı işlərə başlanıb. Bu il mayın 3-də Prezident İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb. Dövlət başçısı bu ərazilərdə "yaşıl enerji" zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın və baş planın hazırlanması üçün ixtisaslaşmış beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi məqsədilə 2021-ci ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan 1 milyon 391 min 40 dollar manat ekvivalenti məbləğində vəsait ayrılmasını qərara alıb.

BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində videoformatda çıxışı zamanı Prezident İlham Əliyev Azərbaycanda bərpa olunan enerjinin inkişafına böyük diqqət göstərildiyini bir daha vurğulamış, Qarabağı və Şərqi Zəngəzuru "yaşıl enerji" zonası elan etdiyini xatırlatmışdır. Şərqi Zəngəzur bölgəsində bir xarici şirkətlə əməkdaşlıq şəraitində tikiləcək 240 meqavat gücündə günəş elektrik stansiyasının Azərbaycanın azad edilmiş ərazilərində ən böyük birbaşa xarici sərmayə qoyuluşu layihəsi olacağını bildirmişdir. Dövlət başçısı digər beynəlxalq enerji şirkətlərini də azad olunmuş ərazilərimizdə "yaşıl enerji" layihələrinə sərmayə qoymağa dəvət etmişdir.

Hazırda Qarabağ və Şərqi Zəngəzurda Yaponiyanın TEPSCO şirkəti cəlb edilməklə "Yaşıl Enerji Zonası"nın yaradılması üzrə müfəssəl konsepsiya hazırlanıb. Baş plan tərtib olunur. Layihə çərçivəsində ərazilərin inkişafı və məskunlaşma variantları üzrə müxtəlif enerji tələbatı və təchizatı ssenarilərinə baxılıb. Eyni zamanda bu bölgələrdə hidro, günəş, külək, biokütlə, geotermal və digər bərpa olunan enerji potensialının öyrənilməsi, mövcud resurslardan istifadə etməklə külək və günəş enerji stansiyalarının və həmçinin su anbarlarında, kiçik çaylarda su elektrik stansiyalarının tikilməsi istiqamətində davamlı araşdırmalar aparılır.

Bu bölgələr 7200 meqavat günəş, 2000 meqavat külək enerjisi potensialına malikdir. Ölkəmizin daxili su ehtiyatlarının isə təxminən 25 faizi, yəni illik 2 milyard 560 milyon kubmetri bu ərazilərdə formalaşır. Günəş enerjisi potensialı Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlıda, külək enerjisi potensialı isə Laçın və Kəlbəcərin dağlıq ərazilərində müşahidə olunur. Regionun Tərtərçay, Bazarçay, Həkəriçay kimi əsas çayları və digər kiçik çayları böyük hidroenerji potensialına malikdir. Həmçinin ilkin təhlillərə əsasən, Kəlbəcərdə günlük 3093 kubmetr, Şuşada isə günlük 412 kubmetr termal su ehtiyatlarının mövcud olması ehtimal edilir.

Qeyd edək ki, Prezident İlham Əliyev Füzuli və Zəngilana səfərləri zamanı bu rayonların hər birində Rəqəmsal Yarımstansiyanın təməlini qoymuşdur. Beləliklə, 3 may 2021-ci il tarixli sərəncamda qarşıya qoyulan vəzifələrin icrası məqsədilə paylayıcı şəbəkələrin "Yaşıl Enerji Zonası" tələbləri üzərində qurulmasına start verilib. "Ağıllı şəbəkələr" konsepsiyasının təməl elementlərindən biri olan Rəqəmsal Yarımstansiya layihəsi işlənib hazırlanıb. Bu cür yarımstansiyalar elektrik şəbəkəsinin vəziyyəti haqqında bütün məlumatları toplayır, emaldan keçirir, avadanlığın rəqəmsal formatda idarə olunmasını təşkil edir. Nəzarət, mühafizə və idarəetmə sistemlərinin innovativ həll layihəsi olan bu yarımstansiyalarda optik rəqəmsal ölçmə transformatorlarının və yeni nəsil rəqəmsal avadanlıq komplekslərinin işlənib hazırlanması təmin edilir, bütün ölçülər yüksək dəqiqliklə aparılır. Avtomatlaşdırma insan amilinin şəbəkənin işinə təsirini azaltmağa, etibarlılığını artırmağa və elektrik enerjisinin ötürülməsi zamanı itkiləri minimuma endirməyə imkan verir. Həmçinin enerjinin əldə olunması dəyəri və istismar xərcləri azalır. Rəqəmsal yarımstansiyalar bir sıra digər funksiyaları da yerinə yetirir. Ən əsası "yaşıl enerji" mənbələri şəbəkəyə inteqrasiya olunur. Bərpa olunan enerji mənbələrinin şəbəkələrə inteqrasiyası rəqəmsal yarımstansiyada avtomatik idarə edildiyindən elektrik enerjisi təchizatında fasilələrin yaranması tam aradan qaldırılır. İstehlakçılar yarana biləcək texniki fasilə barədə əvvəlcədən onlayn qaydada məlumat alır.

Bərpa olunan enerji sahəsinin inkişafı üçün imzalanan sərəncamlar, qəbul edilən qərarlar, başlanan genişmiqyaslı işlər deməyə əsas verir ki, ölkəmiz bu istiqamətdə uğurla irəliləyərək sevindirici nəticələrə nail olacaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Erməni təxribatı nəticəsində Cocuq Mərcanlıda dağılan tikililər bərpa olunub

Erməni təxribatı nəticəsində Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində dağılan evlərin tikinti-bərpa işləri başa çatıb. AZƏRTAC xəbər verir ki, dağılan evlərin təmir-bərpa işləri istiqamətində işlər ardıcıl olaraq həyata keçirilib. Hazır olan evlərin əksəriyyəti artıq sakinlərə təhvil verilib.

Ötən il sentyabrın 27-də başlayan erməni təxribatı zamanı Cocuq Mərcanlı da ağır artilleriyadan atəşə məruz qalmışdı. Nəticədə Cocuq Mərcanlı kəndində 47 tikiliyə zərər dəymişdi. Lakin qısa müddət ərzində ordumuz tərəfindən layiqli cavab verildi, düşmən torpaqlarımızdan çıxarıldı. Qələbədən dərhal sonra ölkə rəhbərliyinin göstərişi ilə dağılan evlərin bərpası və tikintisinə başlanıldı.

Artıq Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin nəzarəti ilə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində işlər tamamilə yekunlaşıb. Ziyan dəymiş 46 yaşayış evi və qeyri-yaşayış obyekti təmir-bərpa olunub, 1 sahibkarlıq obyekti yenidən tikilərək sahibinə təhvil verilib.

Qeyd edək ki, 44 günlük Vətən müharibəsi dövründə Ermənistan silahlı qüvvələri münaqişə zonasından və cəbhə xəttindən uzaqda yerləşən şəhər və rayonları müxtəlif növ silahlarla, artilleriya və ballistik raketlərlə atəşə tutaraq mülki əhalini və eləcə də infrastruktur obyektlərini hədəf seçərək insanlıq əleyhinə cinayətlər törədib, günahsız şəxslər vəhşicəsinə qətlə yetirib, fərdi yaşayış evlərinə, sosial və iaşə tikililərinə irimiqyaslı zərər vurub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 6 noyabr tarixli Sərəncamına əsasən, dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması məqsədilə Dövlət Komissiyası yaradılıb. On bir şəhər və rayon ərazisində yerləşən zərər dəymiş tikililərə baxış keçirilib, qiymətləndirmə aparılaraq təmir-tikintinin ilkin planlaşdırılması işlərinə başlanılıb. Nazirlər Kabinetinin sərəncamı ilə 11 şəhər və rayon ərazisində yerləşən yaşayış evləri, sahibkarlıq obyektləri və digər təyinatlı tikililərin inşası, təmir və bərpası üzrə sifarişçi funksiyaları, habelə tikinti prosesində həyata keçiriləcək işlərin təşkili və əlaqələndirilməsi Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə həvalə edilib. Komitə tərəfindən yanvar ayının 27-dən etibarən ziyan dəymiş şəhər və rayonların ərazisində təmir-tikinti işlərinə start verilib.

Ümumilikdə 11 şəhər və rayon ərazisində 13 mindən çox tikiliyə ziyan dəyib. Dövlət başçısının tapşırığı ilə Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən 11 min 300 yaşayış və qeyri-yaşayış obyekti üzrə tikinti və təmir-bərpa işləri artıq yekunlaşdırılıb. Digərlərində işlər qrafik üzrə sürətlə aparılır və onların da yaxın zamanda tamamlanaraq mərhələli şəkildə təhvil verilməsi, sakinlərin rahat həyat şəraitinə qaytarılması üçün bütün qüvvələr səfərbər olunub.





# Moskvada Bakı Musiqi Akademiyasının 100 illiyinə həsr olunmuş konsert keçirilib

P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının Böyük zalında Üzeyir bəy Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) 100 illiyinə həsr olunmuş konsert keçirilib.



AZƏRTAC xəbər verir ki, gecə Heydər Əliyev Fondu və Azərbaycanın Rusiyadakı səfirliyi tərəfindən təşkil olunub. BMA-nın rektoru, SSRİ Xalq artisti Fərhad Bədəlbəyli tədbiri giriş sözü ilə açaraq konsertin təşəbbüskarı və təşkilatçısı olan Heydər Əliyev Fonduna, eləcə də Azərbaycanın Rusiya Federasiyasındakı səfirliyinə minnətdarlığını bildirib. Gecəyə Rusiyanın Xalq artisti Emmanuil Vitorqan aparıcılıq edib.

"Bu gün səhnəyə Bülbül, Adıgözəlzadə kimi soyadları daşıyan musiqiçilər çıxacaqlar. Bütün bu soyadlar Qarabağla, Şuşa ilə bağlıdır. Bu gün biz sizə Azərbaycanın musiqi mədəniyyətini təqdim edəcəyik. Azərbaycan mədəniyyətinin tarixi minilliklərlə ölçülür, lakin peşəkar klassik məktəb 100 ildə böyük yol keçib", - deyən F.Bədəlbəyli xatırladıb ki, Üzeyir bəy Hacıbəyli Sankt-Peterburq Konservatoriyasında təhsil alıb, dahi rus bəstəkarı Dmitri Şostakoviç Qara Qarayevin müəllimi və ustadı olub. F.Bədəlbəyli Azərbaycan klassik musiqisinin inkişafında rus bəstəkarlarının və pedaqoqlarının rolundan da danışıb. BMA-nın rektorunun sözlərinə görə, Akademiyanın 100 illik yubileyinin Moskva Konservatoriyasında qeyd olunması həm Azərbaycanın, həm də Rusiyanın həyatında əlamətdar hadisədir.

P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının rektoru Aleksandr Sokolov BMA-nı yubiley münasibətilə təbrik edərək deyib: "Mən həmkarlarımı, dostum Fərhad Bədəlbəylini təbrik etmək istəyirəm. Yuvarlaq 100 rəqəmi çox şeydən xəbər verir. Bu, peşəkar ustalıq və inkişaf üçün artıq fundamental təməl deməkdir". Moskva Dövlət Konservatoriyasının rektoru vurğulayıb ki, BMA-nın yubileyinin Moskva Konservatoriyasının Böyük zalında qeyd olunması iki ölkənin musiqi dünyası arasında çoxdankı və yaxşı ənənələrin davamıdır. "Bizim əlaqələrimiz gələcək nəsillər tərəfindən mütləq davam etdirilməlidir", - deyə A.Sokolov əlavə edib.

Konsertdə BMA-nın tanınmış məzunları da iştirak ediblər. Akademiyanın rektoru, SSRİ Xalq artisti Fərhad Bədəlbəyli, Azərbaycanın Xalq artistləri Yalçın Adıgözəlzadə, Murad Adıgözəlzadə, Samir Cəfərov, Alim Qasımov, Murad Hüseynov, Yeganə Axundova, Əməkdar artistlər Fuad İbrahimov, Elvin Qəniyev, Sahib Paşazadə, Azər Zadə, Fərqanə Qasımova, beynəlxalq müsabiqələr laureatı Selcan Nəsibli, dahi Bülbülün nəvəsi Murtuza Bülbül və başqaları səhnəyə çıxıblar.

Konsert proqramına Mixail Pletnyovun rəhbərliyi ilə Rusiya Milli Orkestrinin ifasında Azərbaycan musiqisinin klassikləri Üzeyir bəy Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov və Niyazinin, eləcə də Qərbi Avropa və rus bəstəkarlarının əsərləri daxil idi. Dahi Üzeyir bəy Hacıbəylinin "Koroğlu" operasının uvertürası ilə açılan konsert proqramı dirijor Yalçın Adıgözəlzadənin rəhbərliyi ilə Alim Qasımovun və Fərqanə Qasımovanın ifasında "Qarabağ şikəstəsi" oratoriyasının finalı ilə başa çatıb.

Azərbaycan musiqi mədəniyyətinin və musiqi təhsilinin inkişafında əvəzsiz rol oynayan Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası şərəfli və əlamətdar tarixi yol keçib. Dahi Üzeyir bəy Hacıbəylinin səyləri sayəsində 1920-ci il avqustun 26-da yaradılmış bu sənət məbədi yüksəkixtisaslı kadrlar yetişdirilən ustalıq məktəbinə çevrilib. İlkin mərhələdə Üzeyir bəy Hacıbəylinin Moskva, Leninqrad və Rusiyanın digər şəhərlərinin konservatoriyalarından dəvət etdiyi rus musiqi mədəniyyətinin görkəmli xadimləri Azərbaycanda milli kadrların yetişdirilməsinə, ifaçılıq məktəbinin inkişafına mühüm töhfələr veriblər. M.Brenner, G.Şaroyev, V.Kozlov, L.Rostropoviç, S.Bretanitski, İ.Turiç, V.Anşeleviç, N.Speranski və bir çox digər mədəniyyət xadimlərinin adları böyük minnətdarlıq hissi ilə çəkilir, onların sayəsində Bakı keçmiş Sovet İttifaqında musiqi mərkəzi statusu qazanıb.

BMA Azərbaycanın aparıcı ali musiqi təhsili müəssisəsidir. Akademiyanın 3 fakültəsi və 18 şöbəsi, magistratura, aspirantura və doktoranturası mövcuddur. Akademiyanın nəzdində Bülbül adına Musiqi Məktəbi, Musiqi məktəb-studiyası və Ş.Məmmədova adına Opera Studiyası, eləcə də 2 elmi laboratoriya fəaliyyət göstərir.






# Zəfər Gününə həsr olunan “Heydər Əliyev və Azərbaycan tarixi” VII Ümumrespublika bilik yarışı başlayır



Heydər Əliyev Mərkəzində keçiriləcək növbəti bilik yarışına hazırlıqlar başlayıb. “Heydər Əliyev və Azərbaycan tarixi” VII Ümumrespublika bilik yarışında iştirak edən 40-dan çox ali təhsil müəssisəsinin tələbələrindən ibarət komandalar bu gündən etibarən Heydər Əliyev Muzeyində olaraq Ümummilli Liderin həyat və fəaliyyəti, Azərbaycan tarixinə dair mövzular üzrə araşdırma aparmaqla müsabiqəyə hazırlaşırlar.

AZƏRTAC xəbər verir ki, builki “Heydər Əliyev və Azərbaycan tarixi” Ümumrespublika bilik yarışının əsas mövzusu Vətən müharibəsi və şanlı Zəfər tarixinə həsr olunub. Noyabrın 12-də Heydər Əliyev Mərkəzində təşkil olunacaq yarışın son günündə komandalar arasından 3 qalib seçiləcək.

Qeyd edək ki, ali təhsil müəssisələrinin tələbələri arasında 2014-cü ildən etibarən keçirilən bilik yarışı Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinin öyrənilməsi, dahi rəhbərin irsinin yaşadılması ilə yanaşı, gənclərin Azərbaycan tarixinə dair biliklərinin dərinləşdirilməsi, intellektual vərdişlərinin inkişafı məqsədi daşıyır.

Bu günədək keçirilən yarışların qaliblərini bir daha təqdim edirik:

**“Heydər Əliyev və Azərbaycan tarixi” I Ümumrespublika bilik yarışı**

**12 noyabr 2014-cü il**
İştirakçı: 44 ali məktəbin komandası
Qaliblər:
I yer - Bakı Slavyan Universiteti
II yer - Milli Təhlükəsizlik Nazirliyinin Heydər Əliyev adına Akademiyası
III yer - Lənkəran Dövlət Universiteti

❖ ❖ ❖

**“Heydər Əliyev və Azərbaycan tarixi” II Ümumrespublika bilik yarışı**

**10 noyabr 2015-ci il**
İştirakçı: 46 ali məktəbin komandası
Qaliblər:
I yer - Qafqaz Universiteti
II yer - Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Polis Akademiyası
III yer - Lənkəran Dövlət Universiteti

❖ ❖ ❖

**“Heydər Əliyev və Azərbaycan tarixi” III Ümumrespublika bilik yarışı**

**8 noyabr 2016-cı il**
İştirakçı: 42 ali məktəbin komandası
Qaliblər:
I yer - Azərbaycan Dövlət İqtisad Universiteti
II yer - Azərbaycan Dövlət Sərhəd Xidməti Akademiyası
III yer - Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası

❖ ❖ ❖

**“Heydər Əliyev və Azərbaycan tarixi” IV Ümumrespublika bilik yarışı**

**11 noyabr 2017-ci il**
İştirakçı: 44 ali məktəbin komandası
Qaliblər:
I yer - Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti Akademiyası
II yer - Azərbaycan Dövlət Aqrar Universiteti
III yer - Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası

❖ ❖ ❖

**“Heydər Əliyev və Azərbaycan tarixi” V Ümumrespublika bilik yarışı**

**18 oktyabr 2018-ci il**
İştirakçı: 47 ali məktəbin komandası
Qaliblər:
I yer - Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti Akademiyası
II yer - Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası
III yer - Daxili İşlər Nazirliyinin Polis Akademiyası

❖ ❖ ❖

**“Heydər Əliyev və Azərbaycan tarixi” VI Ümumrespublika bilik yarışı**

**12 noyabr 2019-cu il**
İştirakçı: 48 ali məktəbin komandası
Qaliblər:
I yer - Daxili İşlər Nazirliyinin Polis Akademiyası
II yer - Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası
III yer - Dövlət Sərhəd Xidməti Akademiyası.

# DOST Agentliyi “Avropa Sosial Xidmətlər Mükafatı - 2021”in finalçılar siyahısında iki yer qazanıb

Ölkəmizdə dövlət sosial xidmətləri sahəsində innovativ nailiyyət olan DOST konsepsiyası Azərbaycanın yeni brendi kimi beynəlxalq arenada da böyük maraqla qarşılanır.




DOST Agentliyi Avropa Sosial Şəbəkəsinin (ASŞ) “Avropa Sosial Xidmətlər Mükafatı - 2021” müsabiqəsinin finalçıları siyahısında “Texnoloji alətlər” və “Möhtəşəm heyət” nominasiyaları üzrə iki yer qazanıb.

Müsabiqə sosial xidmətlər sahəsində təşəbbüsləri, pandemiya dövründə yeni innovativ təcrübələrin tətbiqi əsasında insanların qayğı ilə əhatə olunması üçün kreativ həllərin tətbiqi, yeni texnologiya alətlərinin işə salınması və s. üzrə əldə olunan nəticələri dəyərləndirmək məqsədi daşıyır.

Müsabiqənin qalibləri münsiflər heyətinin səsləri ilə ictimai səsvermənin nəticəsinin cəmi əsasında müəyyən olunacaq.

DOST Agentliyinin müsabiqənin final mərhələsində iki yerlə qərarlaşması DOST konsepsiyasının Avropa məkanında sosial sahə üzrə ən mütərəqqi təcrübələrdən biri kimi tanınaraq seçildiyini bir daha göstərir.

Bundan əvvəl isə DOST Agentliyi Avropa Sosial Şəbəkəsinin Şurasının üzvü seçilib və şəbəkənin müxtəlif tədbir və müzakirələrində fəal iştirak edib.

“Avropa Sosial Xidmətlər Mükafatı - 2021” müsabiqəsinin final tədbirinin dekabrın 3-də keçirilməsi nəzərdə tutulur. Tədbirdə DOST Agentliyinin nümayəndə heyəti də finalçı və Avropa Sosial Şəbəkəsi Şurasının üzvü qismində DOST fəaliyyətinə dair təqdimatla çıxış edəcək.


# Azərbaycan Respublikasının Mərkəzi Bankı
## *açıq tender elan edir*

Azərbaycan Respublikasının Mərkəzi Bankı “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aşağıdakı satınalma predmetləri üzrə açıq tender üsulu ilə elektron satınalma keçirir:

LOT 1: Azərbaycan Respublikası Mərkəzi Bankının Bakı şəhəri, R.Behbudov küçəsi 90 ünvanında yerləşən mərkəzi ofisi üçün 2 ədəd 30 kVA gücündə elektrik tənzimləyicisinin, Yevlax və Quba şəhərlərində yerləşən Ərazi İdarələri binalarında istismar olunan UPS avadanlıqları üçün akkumulyatorların və onların quraşdırılması işlərinin satın alınması;

LOT 2: Azərbaycan Respublikası Mərkəzi Bankının Bakı şəhəri, Bülbül prospekti 27 ünvanında yerləşən inzibati binasının server otağında yanğın təhlükəsizliyi ilə bağlı işlərin və mal-materialların satın alınması;

LOT 3: Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün korporativ stil mallarının satın alınması.

Tender proseduru 30 noyabr 2021-ci il saat 15:00-da Dövlət satınalmalarının vahid internet Portalında **(https://etender.gov.az/)** (bundan sonra - Portal) keçiriləcəkdir.

Tenderdə yalnız mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

LOT 1 və LOT 2 üzrə **iştirak haqqı tətbiq edilmir,** LOT 3 üzrə isə maraqlı şəxslər tenderdə iştirak etmək üçün “ASAN ödəniş” sistemi vasitəsilə Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı hesabına 100 (bir yüz) manat məbləğində iştirak haqqı ödəməklə Portal vasitəsilə Əsas şərtlər toplusunu əldə edə bilərlər:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**Hesab: AZ25NABZ01701190000000001944**
**Müxbir hesabı: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T. BIK NABZAZ2C**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar Portal vasitəsilə aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, nizamnaməsi, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış, bank rekvizitləri;*
- *iddiaçının mikro, kiçik və orta sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *Azərbaycan dilində tender təklifi (tender təklifi 14 yanvar 2022-ci ilədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (tenderin Əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış;*
- *tenderin Əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.*

İddiaçılar tender təklifini və tender təklifinin bank təminatını ən geci 29 noyabr 2021-ci il saat 18:00-a qədər, digər tələb olunan sənədləri isə ən geci 19 noyabr 2021-ci il saat 15:00-a qədər Portal vasitəsilə təqdim edə bilərlər.

Satınalmaya başlanma vaxtı:
Hər üç LOT üzrə: satınalma müqaviləsi imzalandığı gündən.
Malların təqdim edilməsi və xidmətlərin göstərilməsi (işlərin görülməsi) müddəti:
LOT 1 və LOT 2 üzrə satınalma müqaviləsi imzalandığı gündən 60 (altmış) təqvim günü müddətində;
LOT 3 üzrə: tələbata uyğun sifariş əsasında 1 (bir) il müddətində.
Qiymətləndirmə meyarları:
LOT 1 və LOT 2 üzrə: maliyyə və texniki amillər (əməkdaşların peşəkarlığı, maddi-texniki baza, iş təcrübəsi, zəmanət müddəti və zəmanət şərtləri).
LOT 3 üzrə: maliyyə və texniki amillər (iş təcrübəsi və korporativ müştərilərin sayı).
İddiaçılar tərəfindən tenderlə bağlı bütün sorğular və onlara dair izahatlar yalnız Portal vasitəsilə verilir.
Tender prosedurunun hər bir iştirakçısı onun təklifinin açılmasını və qiymətləndirilməsini Portal vasitəsilə müşahidə edə bilər.

***Tender komissiyası***


# Paytaxtda növbəti həyət abadlaşdırılıb

Oktyabrın 27-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən “Bizim həyət” layihəsi çərçivəsində növbəti abadlaşdırılmış həyət sakinlərin istifadəsinə verilib.







AZƏRTAC xəbər verir ki, yenilənmiş həyət Bakının Nəsimi rayonu, Seyid Cəfər Pişəvəri küçəsi, 14, 20 ünvanında 800 nəfərə yaxın sakinin yaşadığı binaları əhatə edir.

“Bizim həyət” layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarını səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə müxtəlif idman qurğuları, futbol və şahmat meydançaları, uşaqlar üçün oyun meydançası salınıb. Həyətin ərazisində 2 söhbətgah inşa edilib, oturacaqlar, tullantılar üçün qutular, quş yuvaları, it damı quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq həyətdə yeni işıqlandırma dirəkləri, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq xüsusi karantin rejiminin qaydalarına riayət etməklə 50 ağac əkilib və 1600 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb, yaşıllıqların suvarılması üçün su xətti çəkilib.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

# Dövlət Sərhəd Xidmətinin Vətən müharibəsinin iştirakçısı olmuş hərbi qulluqçuları Silahlı Qüvvələrin ehtiyatına buraxılıb

Dövlət Sərhəd Xidmətinin (DSX) Vətən müharibəsinin iştirakçısı olmuş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının Silahlı Qüvvələrin ehtiyatına buraxılması münasibətilə oktyabrın 27-də “Horadiz” sərhəd dəstəsində təntənəli tədbir keçirilib.



DSX-nin Mətbuat mərkəzindən bildiriblər ki, tədbirdə Dövlət Sərhəd Xidməti rəisinin müavini general-leytenant Abbas Xəlilov çıxış edərək hər bir sərhədçinin Azərbaycan Prezidenti, milli dövlətçilik tariximizin ən böyük sərkərdəsi İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığı ilə müqəddəs savaşın qalib əsgəri olması, bütövləşmiş ölkəmizin dövlət sərhədlərində vüqarla dalğalanan üçrəngli bayrağımız altında şərəflə xidmət aparması ilə qürur duyduğunu vurğulayıb.

Dövlət Sərhəd Xidmətinin sıralarında hərbi xidmətlərini layiqincə başa vuraraq Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin ehtiyatına buraxılan çavuş və əsgərlərin Vətən müharibəsində böyük qəhrəmanlıqla vuruşmaları, onların döyüş məharəti, vətənpərvərliyi və mübarizliyi nəticəsində tarixi Qələbənin qazanılmasında Azərbaycan sərhədçilərinin xüsusi rolunun ən ali səviyyədə dəyərləndirildiyi qeyd olunub, dövləti maraqlarımızı layiqincə müdafiə edən övladlar yetişdirdiklərinə görə onların valideynlərinə minnətdarlıq bildirilib.

Ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda gedən döyüşlərdə canlarını fəda edərək xalqımıza Qələbə sevincini yaşatmış şəhidlərimizin əbədi ehtiramla yad ediləcəyi, onların qəhrəmanlıq mirasının gələcək nəsillər üçün hər zaman örnək olacağı vurğulanıb.

Tədbir çərçivəsində Vətən müharibəsində şücaət və qəhrəmanlıq göstərərək torpaqlarımızın azad olunmasında fərqləndiklərinə görə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən təltif edilmiş sərhədçilərə medallar təqdim olunub.

Tədbirin sonunda tərxis edilən hərbi qulluqçularla xatirə şəkilləri çəkilib və şəxsi heyət xüsusi ayrılmış avtobuslarla yaşadıqları bölgələrə yola salınıb.

# “Məşğulluq marafonu”na 563 işəgötürən qoşularaq 3144 vakansiya təqdim edib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən bu ilin iyun ayında başladılan “Məşğulluq marafonu”na bu günədək 563 işəgötürən qoşulub. Onlardan 293-ü dövlət, 270-i özəl müəssisələrdir.




Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin və müharibədə yaralanmış qazilərimizin məşğulluğuna dəstək məqsədi daşıyan marafona təqdim edilən vakansiya sayı 3144-ə çatıb.

Həmin vakansiyalar üzrə verilən göndərişlər əsasında artıq 965 nəfər (155 şəhid ailəsi üzvü və 810 qazi) işlə təmin olunub.

Hazırda da bu kateqoriyalardan olan vətəndaşlara vakansiyalar üzrə göndərişlərin verilməsi davam edir.

“Məşğulluq marafonu”na qoşulmaq istəyən işəgötürənlər vakansiyaları barədə, işlə təmin olunmaq istəyən şəhid ailəsi üzvləri və Vətən müharibəsində yaralanmış qəhrəmanlarımız isə özləri haqqında məlumatları **https://dma.gov.az/layiheler/mesgulluq-marafonu** linkinə daxil olmaqla qeyd edə bilərlər.

Qəhrəmanlarımızın məşğulluğuna birgə dəstək olaq!

# Yanvar-sentyabr aylarında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin e-xidmətlərinə 11,5 milyon müraciət qeydə alınıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron xidmətlərinə 2021-ci ilin yanvar-sentyabr aylarında 11,5 milyon müraciət qeydə alınıb.




Müraciətlər üzrə əmək münasibətləri, məşğulluq, sosial müdafiə və sosial təminat, sosial sığorta, əlillik və reabilitasiya, övladlığagötürmə və s. üzrə vətəndaşlara xidmətlərin göstərilməsi təmin olunub.

Ümumilikdə nazirlik üzrə 170 xidmətdən 105-i e-platforma üzərindən göstərilir. Bu e-xidmətlərin böyük hissəsi sosial təminat sahələri ilə bağlıdır. Həmçinin 44 e-xidmət proaktiv qaydada (şəxsin sosial təminat növünə hüququ yarandığı halda bu hüququn müraciət olunmadan və sənəd təqdim edilmədən avtomatik reallaşdırılması) xidmətlərin göstərilməsini təmin edir.

Hazırda qurumun fəaliyyət sahələri üzrə daha 56 xidmətinin də elektronlaşdırılması üçün işlər aparılır. Onlardan 20-ə qədəri proaktiv xidmətlər olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının kollektivi Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini Niyazi Səfərova və Milli Məclisin deputatı Nizami Səfərova anaları

ƏSKİNAZ XANIMIN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Kürdəmir Rayon Məhkəməsinin sədri Müseyib Bayramov və məhkəmənin kollektivi Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini Niyazi Səfərova və Milli Məclisin deputatı Nizami Səfərova anaları

ƏSKİNAZ XANIMIN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5609
Sifariş 2083
Qiyməti 40 qəpik